QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 153 (5625) 15 **avqsut** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Azərbaycan son 15 ildə dünyanın heç bir dövlətinə müyəssər olmayan sürətli inkişaf yolu keçib

*İlham Əliyev: "İqtisadi baxımdan 15 il ərzində Azərbaycan qədər inkişaf edən ikinci dövlət yoxdur. Hətta böhranlı illərdə də biz öz iqtisadi gücümüzü qoruya bilmişik"*



Səh 2

Azərbaycanla YUNESKO arasında salınan körpü daha da möhkəmlənir



3

Jonh Batchelor Show: Azərbaycan kommersiya məkanına və ulduzlara doğru




4

"Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın imzalanması regionumuz və ölkəmiz üçün mühüm addımdır"



5

Ermənistanda Koçaryanın azadlığa buraxılmasına etirazlar baş qaldırıb



4

İran səfiri: "Xəzər dənizi suverenlik və təhlükəsizlik dənizidir"



7

Hökumət tikinti ilə bağlı qaydalara dəyişiklik etdi



11

13

Koçaryanın azadlığında Kremlin izi



14

Sosial şəbəkələrdəki "klaviatura qəhrəmanları"



16

Mario Mandzukiç Xorvatiya millisindən getdi



# Azərbaycan son 15 ildə dünyanın heç bir dövlətinə müyəssər olmayan sürətli inkişaf yolu keçib

## *İlham Əliyev: "İqtisadi baxımdan 15 il ərzində Azərbaycan qədər inkişaf edən ikinci dövlət yoxdur. Hətta böhranlı illərdə də biz öz iqtisadi gücümüzü qoruya bilmişik"*

***Bu gün hər kəsə bəllidir ki, Azərbaycan özünü təmin edən, milli köklərə əsaslanan, eyni zamanda, dünya birliyinin etibarlı və layiqli üzvü olan dövlətdir. Beynəlxalq münasibətlərin dəyişdiyi, qloballaşan dünyada yeni məsələlərin, yeni çağırışların ortaya çıxdığı bir zamanda Azərbaycanda həyata keçirilən siyasi və iqtisadi islahatlar uğurlu nəticələr verir.***

Son 15 ildə Azərbaycan dünyanın heç bir dövlətinə müyəssər olmayan sürətli inkişaf yolu keçib. Təkcə bir fakta nəzər yetirək. Azərbaycan 15 il öncə, 1,8 milyard dollar valyuta ehtiyatına sahib idisə, bu gün həmin rəqəm 24 dəfə artaraq, 44,3 milyard dollara yüksəlib.

Prezident İlham Əliyevin bu islahatlarının uğurlu gedişini şərtləndirən əsas səbəb onların təməl prinsiplərinin düzgün müəyyənləşdirilərək hazırlanması və qlobal çağırışlardan lokal gerçəkliyədək bütün tələb-şərtlərə uyğunlaşdırılmasıdır. Prezident İlham Əliyev Nazirlər Kabinetinin ilin birinci yarısının yekunlarına həsr olunan iclasında görülən işləri belə dəyərləndirmişdir: "Əlbəttə ki, bizim inkişafımızın təməlində həm düşünülmüş siyasət, həm güclü iradə, eyni zamanda, güclü iqtisadiyyat dayanır. Biz güclü iqtisadiyyat qura bilmişik, bu gün heç kimdən asılı deyilik, özümüz öz taleyimizin sahibiyik və iqtisadi sahədə böyük uğurlar əldə etmişik. Son 15 ilin göstəriciləri bunu əyani sübut edir. İqtisadi baxımdan 15 il ərzində Azərbaycan qədər inkişaf edən ikinci dövlət yoxdur. Hətta böhranlı illərdə də biz öz iqtisadi gücümüzü qoruya bilmişik".



Bu ilin göstəriciləri isə, onu göstərir ki, həm əvvəlki illərdə, həm də bu il aparılan islahatlar müsbət nəticələr verir. Son altı ay ərzində ümumi daxili məhsul 1,3 faiz, kənd təsərrüfatı 7,6 faiz, qeyri-neft sektoru 2 faiz artıb. Qeyri-neft sənayesində 8,8 faiz artım qeydə alınıb. Bu, onu göstərir ki, qeyri-neft sektoruna qoyulan investisiyalar və sahibkarlara göstərilən dəstək öz bəhrəsini verir.

Ölkədə 67 min yeni iş yeri açılıb ki, onlardan 53 mini daimi iş yeridir. Azərbaycan iqtisadiyyatına 6 milyard dollar sərmayə qoyulub. İnflyasiya isə cəmi 3 faizdir. İnflyasiyanın aşağı səviyyədə olması onu göstərir ki, ölkəmizdə makroiqtisadi sabitlik tam təmin edilir.

Əlbəttə ki, bütün bu uğurlu göstəricilər beynəlxalq reytinq agentliklərinin illik hesabatlarında da öz əksini tapır.

Ötən il dünyanın aparıcı beynəlxalq təşkilatları, qurumları, eyni zamanda, tanınmış siyasətçilər və iqtisadçılar Azərbaycanın reallaşdırdığı hərtərəfli islahatları inkişaf etməkdə olan ölkələr üçün nümunə kimi göstərdilər. Beynəlxalq reytinq mərkəzləri və nüfuzlu kütləvi informasiya vasitələri ölkəmizin müxtəlif sahələrdəki uğurlarını yüksək qiymətləndirirlər.

Ötən il "Doing Business 2018" hesabatında Azərbaycan 8 pillə irəliləyərək, 190 ölkə arasında 65-ci pillədən 57-ci yerə yüksəldi. Aparılan davamlı iqtisadi islahatların məntiqi nəticəsi olaraq, Azərbaycan 8 pillə irəliləməklə yanaşı, Avropa və Mərkəzi Asiya regionu üzrə ən islahatçı 3 ölkədən biri kimi müəyyənləşdi.

Bu hesabatda Azərbaycanın mövqeyi 10 indikatordan aşağıdakı altı indikator üzrə yaxşılaşdı: elektrik enerjisinin əldə edilməsi (3 pillə), əmlakın qeydiyyata alınması (1 pillə), kiçik investorların hüquqlarının qorunması (22 pillə irəliləyərək 10-cu yer), vergilərin ödənilməsi (5 pillə irəliləyərək 35-ci yer), müqavilələrin icrası (6 pillə irəliləyərək 38-ci yer) və müflisləşmənin həlli (39 pillə irəliləyərək 47-ci yer).

Hesabatdan da göründüyü kimi, sözügedən beynəlxalq indeks tərəfindən Azərbaycanda aparılan həm hüquqi qanunvericilik, habelə, biznes mühitinin əlverişliyinin daha da yaxşılaşdırılması istiqamətində islahatlar məxsusi olaraq qeyd edilib. Bu, beynəlxalq reytinq agentliklərinin Azərbaycanda aparılan islahatlara xüsusi diqqət yetirdiklərini və izlədiklərini göstərir.

Azərbaycanın mövqeyinin dünyanın ən mötəbər reytinqlərində irəliləməsi, bilavasitə Prezident İlham Əliyev tərəfindən aparılan kompleks iqtisadi islahatlar siyasətinə beynəlxalq ictimaiyyətin verdiyi yüksək qiymətdir. Bu, ötən il Dünya İqtisadi Forumu tərəfindən nəşr olunan "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda da öz əksini tapdı. Azərbaycan növbəti dəfə reytinqdə irəlilədi. Ölkəmiz 137 dövlət arasında iki pillə irəliləyərək, 35-ci yerdə qərarlaşdı. Həmçinin, həmin hesabatda Azərbaycan əmək bazarının səmərəliliyi üzrə 9 pillə irəliləyərək, 17-ci yeri tutdu. Ölkəmiz artıq 8 ildir ki, sözügedən hesabatda MDB ölkələri arasında 1-ci yerdədir.

Bir faktı, xüsusi qeyd etmək lazımdır ki, hətta "G20"-yə daxil olan İtaliya, Rusiya, İndoneziya, Türkiyə, Hindistan, Cənubi Afrika Respublikası kimi ölkələr bu rəqabət indeksinə görə Azərbaycandan geridədirlər. Region ölkələrinə gəldikdə isə, qonşu Gürcüstan həmin reytinqə görə 67-ci yerdə, işğalçı Ermənistan isə 73-cü yerdə qərarlaşdı.

Əlbəttə ki, bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə biznes mühiti üzrə aparılan uğurlu iqtisadi islahatların nəticəsidir. Faktiki olaraq, dünyanın iki ən nüfuzlu iqtisadi yönümlü hesabatında Azərbaycanın inamla irəliləməsi ölkəmizdə aparılan davamlı və sistemli islahatların uğuruna dünya ictimaiyyətinin verdiyi yüksək qiymətdir. Ölkəmizin reytinqinin yaxşılaşması Azərbaycana investisiya axını, iqtisadiyyatın rəqabət qabiliyyətinin artması, qeyri-neft ixracının genişlənməsi və yeni iş yerlərinin açılması deməkdir.

Ötən il isə Azərbaycanın adı nüfuzlu "Standard&Poor's" (S&P) beynəlxalq reytinq agentliyinin də hesabatında ön sıralarda qərarlaşdı. Belə ki, qurumun yaydığı məlumatda qeyd edilirdi ki, 2018-ci il Azərbaycan iqtisadiyyatında artım olacaq. Sənəddə 2019-2020-ci illərdə Azərbaycanda illik ümumi daxili məhsul (ÜDM) istehsalının artımının 3,5 faiz səviyyəsində olacağı proqnozlaşdırılıb. 2019-cu ildə ÜDM-in 3,5 faiz, 2020-ci ildə də 3,5 faiz artacağı göstərilib. Bundan başqa, Azərbaycan iqtisadiyyatına yatırılan investisiyaların həcminin 2018-ci ildə 3,5 faiz, 2019-cu ildə 2,5 faiz, 2020-ci ildə isə 2,5 faiz artacağı qeyd edilmişdi.

Agentliyin hesabatında göstərilirdi ki, 2017-2020-ci illərdə Azərbaycanın xarici ticarət dövriyyəsində müsbət saldo qorunacaq. Belə ki, 2018-ci ildə ÜDM 12,7 faiz, 2019-cu ildə 14,3 faiz, 2020-ci ildə 14,8 faizə bərabər olacaq.

Rusiyanın AKRA reytinq agentliyi yeni hesabatını açıqlayıb. Sənəddə bu il Azərbaycan iqtisadiyyatının 1,5 faiz, 2022-ci ildə isə ÜDM-in 3,2 faizədək artacağı proqnozlaşdırılır.

Agentlik qeyd edir ki, 2016-cı ildə iqtisadiyyatın resessiyasından və 2017-ci ildə 0,1 faiz nominal artımdan sonra Azərbaycan iqtisadiyyatı 2017-2018-ci illərdə xaricdə mütərəqqi bərpa nümayiş etdirdi. Hesabatda bildirilir ki, 2018-ci ilin ikinci yarısında ölkə sənayesinin xammal hissəsində də canlanma müşahidə olunacaq.

Sənəddə o da qeyd edilir ki, Azərbaycan qazının TANAP boru kəməri ilə Türkiyəyə, daha sonra Avropaya tədarükünü nəzərdə tutan "Cənub Qaz Dəhlizi" sisteminin nəql gücünün istismara verilməsi Azərbaycanın tədiyə balansını yaxşılaşdırmağa və iqtisadiyyatın xammal hissəsinin artım göstəricisini möhkəmləndirməyə imkan verəcək.

Bütün göstəricilərə əsasən deyə bilərik ki, 2018-ci il Azərbaycan üçün uğurlu il olacaq. Təsadüfi deyil ki, artıq beynəlxalq reytinq də ölkəmizin vəziyyətinin yaxşı olduğunu göstərir və respublikamız daha yüksək yerlər tutmaqda davam edir. Bu, onu göstərir ki, Azərbaycan iqtisadiyyatı harmonik inkişaf edir və şaxələnmişdir. Bu da ölkədə tam müstəqil siyasətin aparılmasının bariz nümunəsidir.

Ümumiyyətlə, çox doğru olaraq, Azərbaycan iqtisadiyyatı inklüziv iqtisadiyyat kimi səciyyələndirilir. Başqa sözlə desək, Prezident İlham Əliyevin nümayiş etdirdiyi siyasi iradəyə uyğun olaraq, ölkəmizdə güclü iqtisadi inkişaf dərin məzmunlu sosial siyasətlə tamamlanır. Bütün ölkə boyu infrastrukturun ən yüksək standartlar səviyyəsində yenidən qurulması, əhalinin rifahının yaxşılaşdırılmasına yönəldilən tədbirlərin miqyasının ilbəil genişləndirilməsi Azərbaycanın sosial dövlət kimi mənzərəsini göz önündə canlandırır.

Bir sözlə, milli iqtisadiyyatın əsas inkişaf istiqamətlərini, iqtisadi təhlükəsizliyini təmin edən Azərbaycan dövləti artıq dünya iqtisadi düzənində özünəməxsus mövqeyini müəyyənləşdirib və bəzi dövlətlərdən fərqli olaraq, özünün növbəti uğurlu inkişaf modelini seçib. Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən davamlı islahatlar nəticəsində, Azərbaycan dünya iqtisadiyyatında yeni çağırışlara cavab verir.

***"Səs" Analitik Qrupu***

## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev on beş min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən Hacıqabul-Bəhrəmtəpə-Mincivan magistralını Əhmədalılar, Kərimbəyli, Aşağı Yağlıvənd, Araz Zərgər kəndləri ilə birləşdirən avtomobil yollarının tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 4,7 milyon (dörd milyon yeddi yüz min) manatının Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılması ilə bağlı Sərəncam imzalayıb.

Sənəddə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin edilməsi nəzərdə tutulub. Həmçinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələlərin həll edilməsi tapşırılıb.

# Azərbaycanla YUNESKO arasında salınan körpü daha da möhkəmlənir

***BMT-nin ixtisaslaşmış təşkilatı olan YUNESKO dünyanın təhsil, elm və mədəniyyət məsələləri sahəsindəki əməkdaşlığın ən böyük hökumətlərarası forumudur. BMT-nin bu ixtisaslaşmış orqanının vəzifəsi müharibə nəticəsində dağıdılmış ölkələrdə sinif otaqları tikmək, yaxud elmi nailiyyətləri nəşr etməklə məhdudlaşmamışdır. YUNESKO-nun fəaliyyəti daha ali məqsədə - təhsil, elm, mədəniyyət və kommunikasiya vasitəsilə insanların şüurunda sülhü müdafiə etmək ideyasını möhkəmləndirməyə yönəlmişdir.***




YUNESKO irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq, bütün xalqlar üçün BMT-nin Nizamnaməsində elan edilmiş ədalətə, qanunçuluğa və insan hüquqlarına, habelə, əsas azadlıqlara hamılıqla hörmətin təmin edilməsi naminə xalqların təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığını genişləndirməklə sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə yardım göstərməyi qarşısına vəzifə qoymuşdur. Həmin dövrdən başlayaraq bu günə qədər bura üzv olan dövlətlərin sayı artmışdır. Azərbaycan - YUNESKO əlaqələrini bu sırada, xüsusi olaraq, qeyd etməliyik. Bu əlaqələndirici körpünün əsası müstəqillik dövründən başlamışdır. Öz üzvlərinə dünya səviyyəli mütəxəssislərin, texniki yardımların, həmçinin, elmi və pedaqoji kadrların hazırlanması, qlobal elmi layihələrdə iştirak etmək imkanlarından bəhrələnmək imkanı verən YUNESKO ilə əməkdaşlıq etmək qərarına gələn Azərbaycan həmin təşkilata daxil olmuşdur.





Bu gün Azərbaycanla YUNESKO arasında əlaqələr davamlı şəkildə həyata keçirilir. Bu istiqamətdə Heydər Əliyev Fondunun apardığı məqsədyönlü fəaliyyəti xüsusi qeyd etməliyik. Azərbaycan maddi və mənəvi irsinin YUNESKO-nun nadir əsərləri sırasına daxil edilməsi beynəlxalq əməkdaşlığın əsas göstəricilərididir. Belə ki, Muğam sənətinin, Aşıq sənətinin, Novruz bayramının, İçərişəhərin, Tar ifaçılığı sənətinin, Azərbaycan kəlağayısının və s. YUNESKO-nun nadir, şah əsərləri sırasına daxil edilməsi Azərbaycanla bu təşkilat arasında olan əməkdaşlığın davamlığını diqqətə çatdırır. Sözsüz ki, sadaladığımız nadir irsin bu siyahıya daxil edilməsində Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rolu xüsusidir. Belə layihələri həyata keçirən Mehriban xanım Əliyevanın humanizm ideyalarının beynəlxalq aləmdə əks-səda doğurmasının nəticəsidir ki, Ona bu təşkilatın Xoşməramlı Səfiri adı verilmişdir. 14 il əvvəl Mehriban xanım Əliyeva Azərbaycan şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz səylərinə, dünya mədəniyyətlərinin mübadiləsi sahəsində xidmətlərinə, həmçinin, YUNESKO-nun ideyalarına sadiqliyinə görə bu təşkilatın Xoşməramlı Səfiri adına layiq görülüb. Qurulan əməkdaşlıq Azərbaycanın sərvətlərinin beynəlxalq məkanda dəyərləndirilməsində bir körpü rolunu oynayıb.

2013-cü ildə YUNESKO-nun Qeyri-maddi Mədəni İrsin Mühafizəsi üzrə Hökumətlərarası Komitəsinin 8-ci sessiyasına uğurla ev sahibliyi edən Azərbaycanda eyni müvəffəqiyyətlə hər iki ildən bir YUNESKO-nun rəsmi tərəfdaşlığı ilə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilməkdədir. Ümumdünya İrs Komitəsinin 42-ci sessiyasında qəbul edilmiş qərara əsasən, Azərbaycan 2019-cu ildə bu mötəbər qurumun növbəti 43-cü sessiyasına ev sahibliyi etmək hüququ əldə etmişdir. Azərbaycan üçün mühüm əhəmiyyətə malik belə bir qərarın qəbul olunması ölkəmizin YUNESKO ilə tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyini göstərir.

Azərbaycan Prezidenti Cənab İlham Əliyev YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında imzaladığı Sərəncama əsasən, YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının 2019-cu il 30 iyun-10 iyul tarixində Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsi yaradılıb. Beynəlxalq tədbirləri yüksək səviyyədə keçirən Azərbaycan bu tədbirin də təşkili üçün lazımi işlər görəcəkdir. Təşkilatçılıq bacarığına örnək olan ölkəmiz öz təcrübəsindən yararlanacaqdır. Sərəncamın 1-ci hissəsi ilə yaradılmış Təşkilat Komitəsi 2019-cu ildə YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakı şəhərində keçirilməsinə dair Tədbirlər Planı hazırlayıb həyata keçirəcək.

Belə möhtəşəm tədbirlərin ölkəmizdə təşkili, vurğuladığımız kimi, YUNESKO ilə Azərbaycan arasında olan dostluq körpüsünün məntiqi nəticəsidir. Bu körpünü möhkəmləndirən Mehriban xanım Əliyevanın fəaliyyəti sayəsində Azərbaycanla YUNESKO arasında əməkdaşlıq genişlənmişdir. Əbəs deyil ki, bəşəriyyətin maddi və qeyri-maddi mədəni irsinin populyarlaşmasındakı işinə sədaqətinə, mədəniyyətlərarası dialoqun inkişafı naminə göstərdiyi səylərə, mədəni müxtəlifliyin möhkəmləndirilmənsinə sanballı töhfələrinə görə, YUNESK-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevaya YUNESKO-nun baş direktoru tərəfindən "Qızıl Motsart" medalı təqdim olunub. İrina Bokovanın Onun ünvanına söylədiyi "Siz YUNESKO-nun humanist dəyərlərinin əsl bayraqdarısınız" ifadəsi Mehriban Əliyevanın bu təşkilatla olan əməkdaşlığının bariz göstəricisidir.

Mehriban Əliyevanın əməli fəaliyyətinin nəticəsi olaraq, Azərbaycanın görkəmli şəxsiyyətlərinin və əlamətdar hadisələrin yubileyləri YUNESKO çərçivəsində qeyd edilir. Mehriban xanım Əliyevanın YUNESKO-nun mənzil-qərargahında Xoşməramlı Səfirlərin toplantılarında, qurumun mötəbər tədbirlərində iştirakı, keçirdiyi görüşlər, YUNESKO-nun dünya mədəniyyəti və dayanıqlı inkişafda rolu, dünyada təhsilin vəziyyəti və digər aktual mövzularda çıxışları da böyük maraqla qarşılanır.

Azərbaycanın Birinci Xanımının Azərbaycanın təbliği və təqdimatında gördüyü işlərin miqyası geniş və şaxəlidir. Əməli fəaliyyət nəcibliyin, vətənə sədaqəti və sevginin təcəssümüdür.

***Zümrüd BAYRAMOVA***

# Jonh Batchelor Show:
# Azərbaycan kommersiya məkanına və ulduzlara doğru

***ABŞ-ın məşhur və geniş dinləyici auditoriyasına malik olan "Con Batçelor Şou" (Jonh Batchelor Show) radioverilişinin aparıcısı Con Batçelorun Azərbaycanla bağlı hazırladığı növbəti verilişin qonağı "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin sədri Rəşad Nəbiyev olub. AZƏRTAC verilişin xülasəsini təqdim edir.***




"Azərbaycan kommersiya məkanına və ulduzlara doğru" adlı bu verilişdə Con Batçelor ölkəmizin dünya kosmik ailəsinin üzvü olması barədə məlumat verib. Bildirib ki, Azərbaycanda bu sahənin inkişafı üzrə 7-8 ili əhatə edən dövlət proqramı mövcuddur. Bu proqram daxilində artıq iki peyk orbitə buraxılıb, üçüncü peyk isə tezliklə kosmosda olacaq. Bunu ölkənin kommersiya uğuru hesab etmək olar.

"Azərkosmos"un sədri Rəşad Nəbiyev qurumun yaranma tarixi barədə məlumat verərək deyib: "Şirkətimiz Azərbaycan Respublikası Prezidentinin 2010-cu ildə imzaladığı Fərmana əsasən təsis olunub, 2011-ci ilin ortalarından fəaliyyətə başlayıb. İndiyə qədər orbitə iki peykimiz buraxılıb. İlk peyk "Azerspace-1"dir. Biz Afrika, Yaxın Şərq, Mərkəzi Asiya, Avropa və əlbəttə ki, yerləşdiyimiz Qafqaz regionunda telekommunikasiya sahələri üçün yüksək keyfiyyətli peyk xidmətləri təqdim edirik. Eyni zamanda, 2014-cü ildə Fransanın "Airbus" şirkəti ilə əməkdaşlıq edərək, "Azərsky" peykini orbitə buraxmışıq. Hazırda şirkətimiz bütün dünya üzrə, o cümlədən "Google" da daxil olmaqla, bir çox ABŞ şirkətlərinə telekommunikasiya və digər xidmətlər göstərir. Biz cari ilin sentyabr ayında sayca üçüncü telekommunikasiya peykimizi orbital mövqeyə çıxaracağıq. Qeyd edək ki, hər iki telekommunikasiya peyki ABŞ-ın kosmik sahədə aparıcı şirkətləri tərəfindən istehsal edilib".

Rəşad Nəbiyev deyib ki, biz sənayedə baş verən klassik ənənənin dəyişməsini, həm də kosmik sənaye sahəsində müşahidə edirik. Bu dəyişikliyin yeni yaranan kiçik startap şirkətlərindən gəldiyini görürük, məsələn, "SpaceX". Bu cür şirkətlər bazarda klassik və əsas oyunçulara böyük təzyiq göstərirlər. Onların yaratdıqları yeniliklər qiymətlərin aşağı düşməsinə gətirib çıxarır. Bildiyimiz kimi, bütün innovasiyalar adətən yeni və kiçik oyunçular tərəfindən gətirilir. Əgər "SpaceX"ı bazarda hər hansı digər mövcud oyunçu ilə müqayisə etsəniz, məhdud sayda əməkdaşlarla çalışan həmin şirkətin, - bildiyim qədər həmin şirkətdə 2000-3000 əməkdaş çalışır, - son yeddi il ərzində nə qədər uğurlu fəaliyyət göstərdiyini və bunun nəticəsində bazarın digər oyunçularına böyük təsir göstərərək qiymətin aşağı düşməsinə səbəb olduğunu görərsiniz. "Space X" agentliyi və digərləri, o cümlədən "Roskosmos" və NASA peyklərin orbitə çıxarılması qiymətlərini aşağı salmağa məcbur olublar. Qiymətlərin aşağı düşməsini həm də peyk istehsalçılarına aid etmək olar ki, bu da bizə kapital məsrəflərimizi aşağı salmağa imkan verir. Nəticədə bu, bizim müxtəlif bazarlarda daha rəqabətədavamlı olmağımıza şərait yaradır. Bununla da "Azərkosmos" kimi bazara yeni daxil olan şirkətlər SES, Intelsat, Utelsat kimi kompaniyalarla rəqabət aparmağı bacarırlar.

Con Batçelorun orbitə peyk buraxmağın nə qədər qazanc gətirməsi, peyk resurslarının satışa necə çıxarılması barədə sualını cavablandıran R.Nəbiyev deyib: "Telekommunikasiya sahələri üçün müştərilərimizdən danışırıqsa, qeyd etdiyim kimi, onların çoxu Afrika ölkələrindəndir. Bu müştərilərin bir çoxu şirkət məlumatlarının arxivləşdirilməsi məqsədilə bizim peyklərdən istifadə edən internet xidmət təminatçıları, mobil operatorlar, dövlət qurumlarıdır. Bizim, həmçinin Çindən məlumatların analizi ilə məşğul olan müştərilərimiz var. Yaxın Şərqdə bu, əsasən radio və televiziya yayım şirkətləridir, bölgəmizdə isə həm yayım, həm də dövlət qurumlarıdır".

Con Batçelor ABŞ-ın peyk sənayesi sahəsində gördüyü işlərə toxunaraq qeyd edib ki, kosmos Amerikada hər şeyi dəyişdirdi və indi bir çox kiçik peyk şirkətləri, kiçik raket daşıyıcıları və nanopeyklər istehsal edən şirkətlər sayəsində çox güclü rəqabətin şahidi oluruq. Çünki nanopeyklər zamanı qabaqlamaq istəyən şirkətlər üçün tam yeni innovativ məhsullardır.

"Azərkosmos" ASC-nin sədri bildirib ki, bu yaxınlarda Cəmiyyət rəhbərliyi tərəfindən nanopeyklər istiqamətində fəaliyyət göstərmək və dünyada müxtəlif təşəbbüsləri nəzərdən keçirmək məqsədilə şöbə yaradılıb. Startap şirkətlərlə görüşlər keçirilir, danışıqlar aparılır, perspektivlər barədə məlumat toplanılır. Gələcəkdə bizi bu gün gördüyümüzdən tamamilə fərqli inkişaf gözləyir.

Amerikalı aparıcının "Azərkosmos"un gələcək planları barədə sualına cavabında Rəşad Nəbiyev deyib: "Qeyd etmək istəyirəm ki, "Azərkosmos" ASC-nin fəaliyyətə başladığı birinci, yəni, 2011-ci il "Azərbaycan Gənclərinin Xarici Ölkələrdə Təhsili üzrə Dövlət Proqramı"nın ilk məzunlarının əmək bazarına daxil olmasına təsadüf edib. Belə bir təşəbbüs 2007-ci ildə irəli sürülüb. Qeyd etməliyəm ki, bu, Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində mümkün olub və bu yanaşmanın mərkəzində ölkənin gələcəkdə Qərb təhsilli mühəndislərə ehtiyacının olması barədə fikirlər dayanır. Yaxın Şərqdəki eyni məbləğdə sərmayə yatırılan başqa şirkətlərə baxsanız və onlarla bir masa arxasında əyləşsəniz, bu şirkətlərin xarici vətəndaşlar tərəfindən idarə edildiyinin şahidi olacaqsınız. Amma bu günə qədər bizim şirkətin idarəetmə sistemində xarici vətəndaş yoxdur. Düzdür, şirkət fəaliyyətə başlayanda üç nəfər xarici mütəxəssis cəlb olunmuşdu, amma indiyə qədər peyklərimiz orta yaşı 30 olan azərbaycanlı gənclər tərəfindən idarə olunur. Şirkətimiz əməkdaşlarımızı müxtəlif ali məktəblərdə dərs deməyə təşviq edir və onlardan bəziləri artıq doktorluq dissertasiyalarını müdafiə ediblər. Bu, qarşıdakı illərdə davamlı bir prosesə çevriləcək. Mən qətiyyətlə inanıram ki, "Azərkosmos"da çalışan əməkdaşlarımız artıq gələcək illərdə ölkənin müxtəlif sənaye sahələrində işləyəcəklər".

Qeyd edək ki, ABŞ-ın məşhur və geniş auditoriyaya malik olan "Con Batçelor Şou" radioverilişinin aparıcısı Con Batçelor iyulun 29-dan avqustun 4-dək Azərbaycanda səfərdə olub və silsilə verilişlər hazırlayıb.

# VII Beynəlxalq Multikulturalizm Yay Məktəbinin iştirakçıları Azərbaycan Prezidentinə müraciət ünvanlayıblar

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşkilatçılığı ilə keçirilən VII Beynəlxalq Multikulturalizm Yay Məktəbinin iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət ünvanlayıblar. AZƏRTAC xəbər verir ki, müraciətdə Yay Məktəbinin dünyanın 30 ölkəsindən olan iştirakçıları bu il iyulun 19-dan avqustun 9-dək Azərbaycanda bir araya gəldiklərini qeyd edirlər.



Onlar Prezident İlham Əliyevin sərəncamları ilə 2016-cı ilin "Multikulturalizm İli", 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsinin Azərbaycanda müxtəlif milli, etnik, dini və mədəni mənsubiyyətli insanlar arasında heç bir ayrı-seçkiliyə yol verilmədiyinin bariz göstərici olduğunu, həmçinin 2018-ci ilin mədəniyyətlərarası dialoqun dünyada təşviqinə yönələn Bakı Prosesinin 10 illiyinin qeyd ediləcəyini vurğulayırlar.

"Yay Məktəbi çərçivəsində iştirak etdiyimiz tədbirlər, görüşdüyümüz insanlar və getdiyimiz yerlər bütün etnik qrupların və dini təriqətlərin sülh və əmin-amanlıq şəraitində yaşadığı bir ölkə olaraq Azərbaycan haqqında bizim nəzəri və praktiki biliklərimizi dərinləşdirdi və gücləndirdi. Biz, Azərbaycandan və 30 xarici ölkədən olan tələbələr Azərbaycanın Gənc Dostları Klubunun üzvləriyik. Biz bu məktəbdə multikulturalizmin Azərbaycan modeli, bu ölkədəki tolerantlıq mühiti, eləcə də bu istiqamətdə aparılan uğurlu siyasət haqqında fikirlərimizi bölüşmək məqsədilə iştirak etdik", - deyə müraciətdə qeyd edilir.

Yay Məktəbinin iştirakçıları müraciətlərində Azərbaycana heyran qaldıqlarını və ölkə haqqında, eləcə də onun multikulturalizm siyasəti, qədim tarixi və mədəniyyəti ilə bağlı dünyada doğru məlumatların yayılması üçün öz fəaliyyətlərini davam etmək əzmində olduqlarını vurğulayırlar. Sonda VII Beynəlxalq Multikulturalizm Yay Məktəbinin iştirakçıları Azərbaycan Prezidentinə dərin ehtiramlarını bildirirlər.

# Bu ilin payızında Azərbaycanda Xarici İşlər nazirliklərinin himayəsi altında Xəzər dənizi üzrə iclas keçiriləcək

Aktauda keçirilmiş Xəzəryanı ölkələrin dövlət başçılarının V Zirvə toplantısında dövlət başçıları tərəfindən qəbul edilmiş kommunikeyə uyğun olaraq, Xarici İşlər nazirliklərinin himayəsi altında bu ilin payızında Azərbaycanda xarici işlər nazirlərinin müavinlərinin və ya səlahiyyətli nümayəndələrinin Xəzər dənizi üzrə iclası keçiriləcək. AZƏRTAC xəbər verir ki, bunu mətbuata açıqlamasında Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev məlumat verib.



# Ermənistanda Koçaryanın azadlığa buraxılmasına etirazlar baş qaldırıb

Ermənistanın sabiq prezidenti Robert Koçaryanın azad olunmasına etiraz edən aksiya iştirakçıları onun mətbuat konfransının keçirildiyi zala soxulublar. AZƏRTAC xəbər verir ki, Sputnik Armeniya saytının yaydığı məlumata görə, polis qapıları bağlasa da bir neçə şəxs zala daxil ola bilib. Koçaryan mətbuat konfransına gəlməyib. Aksiyada onlarla insan iştirak edir, onlar "Qatil" deyə qışqırırlar. Bundan öncə isə etirazçılar mətbuat konfransının keçirildiyi "Erebuni plaza" binasının qarşısında mitinq keçiriblər.




Xatırladaq ki, iyul ayının sonlarında xüsusi təhqiqat xidməti Koçaryana qarşı konstitusiya quruluşunu devirmək barədə ittiham irəli sürüb. Ertəsi gün məhkəmənin qərarı ilə sabiq prezident iki aylıq həbs olunub. Onun adı 2008-ci il martın 1-də sabiq prezident Levon Ter-Petrosyan tərəfdarlarının seçki nəticələrini qəbul etməyərək Yerevan küçələrində keçirdiyi aksiyanı dağıtmaq işi üzrə cinayət işində keçir. İttihamları quraşdırılmış siyasi təqib adlandıran Robert Koçaryanın fikrincə, bu yolla rəqibləri növbədənkənar parlament seçkiləri astanasında onu siyasi proseslərdən kənarlaşdırmaq istəyirlər. Koçaryanın vəkilləri apelyasiya məhkəməsinə şikayət edib və qurum onun sabiq prezident qismində toxunmazlıq hüququnu əsas gətirərək birinci instansiyanın qərarını ləğv edib.

# "Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın imzalanması regionumuz və ölkəmiz üçün mühüm addımdır"

## *Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Xələfovun AZƏRTAC-a məxsusi müsahibəsi*

**Xarici işlər nazirinin müavini Xələf Xələfov AZƏRTAC-a müsahibəsində Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın tarixi əhəmiyyətindən danışıb və sənədin əsas müddəalarını şərh edib. Müsahibəni təqdim edirik.**



***- Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya ölkəmiz üçün mühüm və tarixi əhəmiyyət kəsb edən sənəddir. Bu barədə sizin fikirlərinizi bilmək istərdik.***

- Əlbəttə, Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın imzalanması regionumuz və ölkəmiz üçün mühüm addımdır. Bildiyiniz kimi, region xalqları əsrlər boyu Xəzər dənizindən və onun resurslarından yararlansalar da, bu dənizin hüquqi statusunu tənzimləyəcək sənəd bu günədək mövcud olmamışdı. Rusiya ilə İran arasında 1921-ci il tarixli və SSRİ ilə İran arasında 1940-cı il tarixli sazişlər yalnız dənizdə gəmiçilik və balıqçılıq məsələlərini tənzimləməklə məhdudlaşırdı. Məhz bu səbəbdən 2018-ci il avqustun 12-də Aktauda V zirvə toplantısında dövlət başçıları tərəfindən imzalanmış Konvensiya ilk dəfə Xəzər dənizinin hüquqi statusunu müəyyən edərək, sahilyanı dövlətlərin dənizə münasibətdə hüquq və öhdəliklərini təsbit edir. Zirvə toplantısında çıxışı zamanı dövlətimizin başçısı tərəfindən qeyd edildiyi kimi, Konvensiya Xəzər dənizində hərtərəfli hüquqi rejimi müəyyənləşdirir. Eyni zamanda, bu sənəd fundamental hüquqi baza rolunu oynamaqla, sahilyanı dövlətlər arasında sahəvi əməkdaşlıq üçün çərçivə formalaşdırır və onlar arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu nümayiş etdirir. Bu baxımdan, sənəd ölkəmizin müstəqilliyinə və Xəzər dənizində suveren hüquqlarının təsbitinə əhəmiyyətli dərəcədə töhfə verir. Onu da əlavə edim ki, bu Konvensiyanın imzalanması BMT-nin baş katibi daxil olmaqla, bütün beynəlxalq ictimaiyyət və dünya mediası tərəfindən çoxtərəfli diplomatiyanın təntənəsi kimi qiymətləndirilib.

***- Azərbaycanın Xəzər dənizinin hüquqi statusunun müəyyən olunması istiqamətində aparılan uzunmüddətli və müxtəlif səviyyəli danışıqlara və onların nəticələrinə töhfəsi nələrdən ibarət olub?***

- Dövlətimizin başçısının Zirvə toplantısında çıxışı zamanı qeyd etdiyi kimi, Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın imzalanması tarixi bir hadisədir. Xəzər dənizinin hüquqi statusunun müəyyən olunması məsələsi Azərbaycan üçün böyük əhəmiyyət kəsb edirdi və 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə ulu öndərimiz Heydər Əliyev tərəfindən Xəzər dənizinin statusunun razılaşdırılmasına yönəlmiş qətiyyətli addımlar atılmağa başlandı. Azərbaycan tərəfi bu proses üzrə danışıqların başlanmasından etibarən həm xarici işlər nazirlərinin müavinləri səviyyəsində keçirilən Xüsusi İşçi Qrupunun iclaslarında, həm xarici işlər nazirlərinin görüşlərində, həm də dövlət başçıları səviyyəsindəki Zirvə toplantılarında fəal və konstruktiv şəkildə iştirak edib.

Qeyd olunmalıdır ki, Xəzərin hüquqi statusuna dair Konvensiyanın ilk konseptual layihəsi məhz Azərbaycan tərəfindən hazırlanıb və tərəflərə təqdim edilib. Bu amil həmin dövrdə danışıqlar predmetinin müəyyən edilməsində müstəsna rol oynayıb. Bundan əlavə, hazırda Konvensiyada öz əksini tapmış Xəzər dənizinin akvatoriyasında sahilyanı dövlətlər üçün müəyyən edilən 15 millik ərazi suları və 10 millik balıqçılıq zonası üzrə razılıq, eləcə də dənizdə tərəflərin əməkdaşlığının əsasını təşkil edən fundamental prinsiplər üzrə razılaşma 2010-cu il noyabrın 18-də Bakıda keçirilmiş Xəzəryanı dövlətlərin üçüncü Zirvə toplantısında əldə olunub. Həmçinin Konvensiyanın ərsəyə gətirilməsi Azərbaycanın ikitərəfli və çoxtərəfli əsasda digər Xəzəryanı ölkələrlə birlikdə Xəzər hövzəsində qarşılıqlı etimada, dostluğa, xoş niyyətə və əməkdaşlığa əsaslanan münasibətlər qurmağa müvəffəq olmasının nəticəsi kimi də qiymətləndirilə bilər.

Ümumilikdə, Konvensiyanın razılaşdırılması Xüsusi İşçi Qrupu çərçivəsində keçirilmiş 52 görüş və növbədənkənar görüşlərin, buna paralel mütəmadi çoxsaylı ikitərəfli məsləhətləşmələrin, xarici işlər nazirlərinin müşavirələrinin və dövlət başçıları səviyyəsində təşkil olunan Zirvə toplantılarında əldə olunmuş geniş konsensusun və tərəflər arasında incə balansın nəzərə alınmasının nəticəsidir. Xəzəryanı dövlətlərin ortaq rəyi budur ki, Xəzər bizi ayıran deyil, birləşdirən məkandır və sərvətdir. Belə ki, sözügedən sənəd hər bir sahilyanı dövlətin iqtisadi və təhlükəsizlik maraqlarının vəhdətini təşkil edir.

Konvensiyanın müddəaları faktiki olaraq, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq tətbiq ediləcək.

***- Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın imzalanmasının ölkəmizin maraqları və suveren hüquqlarının qorunması baxımından əhəmiyyəti barədə nələri qeyd edərdiniz?***

- Bu sənəd ölkəmizin maraqlarına tam cavab verməklə, onun dənizdə həyata keçirdiyi karbohidrogen hasilatı ilə bağlı layihələrinin, eləcə də digər növ təsərrüfat-iqtisadi fəaliyyətlərinin davamlılığını və təhlükəsizliyini təmin edir. Konvensiya bu tip fəaliyyətlərin həyata keçirilməsini nəinki məhdudlaşdırmır, hətta onların daha da genişləndirilməsinə münbit zəmin yaradır.

Konvensiyada dövlətlərin ərazi bütövlüyü və suverenliyinə hörmət edilməsi təməl prinsiplərdən biri kimi müəyyən olunub.

Sənəddə Xəzər dənizinin dibinin beynəlxalq hüququn norma və prinsipləri nəzərə alınmaqla sektorlara bölünməsi qaydası təsdiq olunur, sektorlarda aparılan təsərrüfat-iqtisadi fəaliyyətin təhlükəsizliyinin təmin edilməsi məqsədilə orada yerləşən təsərrüfat obyektlərinin müvafiq təhlükəsizlik zonalarına malik olduğunu göstərir. Bundan başqa, Konvensiya hər bir dövlət üçün onların suveren və müstəsna hüquqlara malik olduğu ərazi suları və balıqçılıq zonalarını müəyyənləşdirir. Həmçinin Konvensiya Xəzər dənizində gəmiçilik və ticarətin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edən dəniz üzgüçülüyünün azadlığı və təhlükəsizliyinin təmin olunması prinsiplərini təsbit edir.

***- Konvensiyada Xəzər dənizi regionunun təhlükəsizliyinin və sabitliyinin qorunması baxımından sahilyanı dövlətlər arasında etimad tədbirləri ilə əlaqədar hansı məsələlər öz əksini tapıb?***

- Qeyd edilməlidir ki, sahilyanı dövlətlər üçün Xəzər dənizində təhlükəsizlik və sabitliyin qorunub saxlanması məsələsi hər zaman böyük əhəmiyyət kəsb edib. Belə ki, Xəzər dənizi regionundakı əməkdaşlıq tərəflərin qarşılıqlı maraqları, bərabərliyi, bir-birinin ərazi bütövlüyünə və suverenliyinə hörmət əsasında aparılır. Burada Xəzər dənizinin sülh, mehriban qonşuluq, dostluq və əməkdaşlıq zonasına çevrilməsi, güc işlətməmək və güc işlətməklə hədələməmək, hərbi fəaliyyət sahəsində razılaşdırılmış etimad tədbirlərinə öngörənlik və şəffaflıq ruhunda riayət edilməsi kimi prinsiplər əks olunub. Bununla əlaqədar olaraq, Aktauda baş tutmuş Zirvə toplantısı çərçivəsində dövlət başçıları tərəfindən Xəzər dənizində etimad tədbirlərinin işlənib hazırlanması ilə bağlı razılıq əldə edilib. Etimad quruculuğu tədbirlərinin əsas xəttini hərbi quruculuq sahəsində şəffaflıq, məlumat mübadiləsi və rasionallıq kimi meyarlar təşkil edir.

***- Konvensiyada Xəzər dənizində beynəlxalq əməkdaşlıq məsələləri hansı qaydada tənzimlənir?***

- Bildiyiniz kimi, Azərbaycan üçün Xəzər dənizində beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi hər zaman böyük əhəmiyyət kəsb edib. Bu baxımdan, Konvensiya dənizdə həyata keçirilən layihələrin icrası ilə əlaqədar olaraq Azərbaycanın xarici şirkətlər və korporasiyalarla əməkdaşlığını tanıyır və onun davam etdirilməsinə və genişləndirilməsinə imkan yaradır.

***- Konvensiyanın regionda nəqliyyat dəhlizlərinin inkişafı və genişləndirilməsinə verə biləcək töhfələri barədə nə deyə bilərsiniz?***

- Xəzər dənizi beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafına yönəlmiş bir sıra layihələrdə mühüm rol oynayır. Bu səbəbdən Xəzərin tranzit potensialının həyata keçirilməsinin vacibliyi Konvensiyada da nəzərə alınıb. Belə ki, Konvensiya dəniz üzgüçülüyünün azadlığını müəyyən etməklə, Xəzər dənizindən digər dənizlərə və tranzit ölkənin suveren hüquqları nəzərə alınmaqla dünya okeanına sərbəst çıxış hüququnu, eləcə də tərəflərin limanlarına azad giriş-çıxışını tanıyır.

***- Konvensiyada Xəzər dənizinin ətraf mühitinin, eləcə də onun bioloji resurslarının qorunub saxlanmasına yönəlmiş hansı fundamental prinsip və normalar əksini tapıb?***

- Artıq uzun müddətdir ki, sahilyanı ölkələr Xəzər dənizinin ətraf mühitinin və bioloji resurslarının qorunması sahəsində əməkdaşlıq edirlər. Bu xüsusda, Xəzərin dəniz ətrafı mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyası və onun protokolları, Su bioloji resursların mühafizəsi və səmərəli istifadəsi haqqında Sazişi, habelə Transsərhəd kontekstdə ətraf mühitə təsirin qiymətləndirilməsinə dair Protokolu qeyd edə bilərik. Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya əsasında da tərəflər öz üzərilərinə dənizin ətraf mühitinin qorunmasına dair öhdəlik götürür və onun çirkləndirilməsinə görə məsuliyyət daşıyırlar. Burada, həmçinin tərəflərin su bioloji resurslar üzrə birgə ehtiyatları və həmin ehtiyatların milli kvotalara bölünməsi barədə qaydalar nəzərdə tutulur.

***- Sənəddə tərəflərin Xəzər dənizinin dibi ilə sualtı kabel və boruların çəkilməsi hüququnun həyata keçirilməsi necə həll edilib?***

- Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya sahilyanı dövlətlərin dənizin dibi ilə kabel və boru kəmərlərini çəkmək hüququnu tanıyır. Bu zaman belə boru kəmərlərinin keçəcəyi yollar yalnız onun keçəcəyi sektorun məxsus olduğu sahilyanı dövlətlə razılaşdırılır. Eyni zamanda, belə layihələr sahilyanı dövlətlərin tərəfi olduğu ekologiya sahəsində beynəlxalq sənədlərə uyğun olmalıdır. Konvensiyanın bununla bağlı müddəaları Xəzər dənizi regionunda Azərbaycanın da iştirak etdiyi mövcud layihələrin inkişafı və genişləndirilməsində böyük rol oynayacaq və ölkəmiz üçün yeni perspektivlər yaradacaq.

***- Konvensiyada Xəzəryanı dövlətlər arasında müxtəlif sahələr üzrə əməkdaşlıq məsələlərinə nə kimi önəm verilir?***

- Konvensiya əsasında tərəflər dənizdə beynəlxalq terrorçuluq və onun maliyyələşdirilməsi, silah, narkotik vasitələrin qanunsuz dövriyyəsi, brakonyerliklə mübarizə, dənizlə miqrantların qanunsuz gətirilməsinin, eləcə də digər cinayətlərin qarşısının alınması sahəsində əməkdaşlıq edirlər. Yeri gəlmişkən, diqqətə çatdırmaq istərdim ki, V Zirvə toplantısı çərçivəsində Xəzər dənizində insidentlərin qarşısının alınması, dənizdə terrorçuluq, mütəşəkkil cinayətkarlıqla mübarizə, sərhəd qurumlarının əməkdaşlığı, həmçinin nəqliyyat və ticari-iqtisadi əməkdaşlıq məsələlərini tənzimləyən müqavilələr də imzalanıb. Bu, bütövlükdə Xəzəryanı dövlətlərin dənizdə təhlükəsizlik və iqtisadi əməkdaşlıq məsələlərinə verdiyi önəmin göstəricisidir.

***- Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın səmərəli icrası məqsədilə tərəflər arasında nə kimi mexanizmin təsis olunması nəzərdə tutulur?***

- Konvensiyanın effektiv yerinə yetirilməsi və Xəzər dənizində əməkdaşlığın müxtəlif aspektlərinin nəzərdən keçirilməsi məqsədilə dövlət başçıları tərəfindən Xarici İşlər nazirliklərinin himayəsi altında xarici işlər nazirlərinin müavinləri/Xəzəryanı dövlətlərin səlahiyyətli nümayəndələri səviyyəsində beştərəfli müntəzəm məsləhətləşmələr mexanizmi yaradılıb. Bu mexanizm Konvensiya ilə bağlı məsələlərin həlli və ondan irəli gələn öhdəliklərin icrasına nəzarəti həyata keçirəcək. Onu da qeyd etmək istərdim ki, müvafiq İşçi Qrupunun ilk iclasının cari ilin payız aylarında Azərbaycanda keçirilməsinə dair razılıq əldə olunub. Hazırda bu qrupun qarşısında qoyulan əsas vəzifə düz çıxış xətlərinin müəyyən metodikasına dair sazişin işlənib hazırlanmasından ibarətdir.

İnanırıq ki, Konvensiya sahilyanı dövlətlər tərəfindən tezliklə ratifikasiya olunacaq.

**AZƏRTAC**

# Xəzər dənizinin hüquqi statusuna dair Konvensiya dünya mətbuatının gündəmindədir

***Dünyada baş verən hadisələrə çevik və zamanında reaksiya verən dünya mətbuatı bu dəfə də Xəzəryanı ölkələrin dövlət başçılarının Qazaxıstanın Aktau şəhərində keçirilmiş V Zirvə toplantısını geniş şəkildə işıqlandırmaqda davam edir.***










Bir-birinin ardınca hazırlanan materiallar və reportajlarda Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstanın dövlət başçısı ilə görüşünə və Xəzər dənizinin hüquqi statusuna dair Konvensiyanın imzalanması ilə başa çatan toplantının əhəmiyyətinə böyük diqqət yetirilir. Belə ki, Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmənistan liderlərinin imzaladığı tarixi sənədlə bağlı "Euronews" kanalının hazırladığı reportajda izləyicilərin diqqətinə çatdırılıb ki, imzalanmış Konvensiya Xəzərin hüquqi statusunu müəyyənləşdirməklə yanaşı, regionda sülhün və təhlükəsizliyin təminində əhəmiyyətlidir. Bu sənədin qəbulu bütün tərəflər üçün uğurlu hesab olunur. Qazaxıstan Prezidenti Nursultan Nazarbayev sənədi Xəzər dənizinin konstitusiyası adlandırması əbəs deyildi. Yerli və xarici ekspertlər Xəzər dənizinin hüquqi statusuna dair konvensiyanın imzalanmasını 5 sahil ölkə üçün dönüş nöqtəsi adlandırırlar.

Yaponiyanın nüfuzlu "NHK" telekanalı Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın imzalanması barədə məlumatında Xəzəryanı ölkələr olan Rusiya, İran, Azərbaycan, Qazaxıstan və Türkmənistan sərhədlərin müəyyənləşdirilməsi barədə mübahisəli məsələdə razılıq əldə etdiyini bildirib. Konvensiyada gəmiçilik, balıqçılıq, elmi araşdırmalar və magistral kəmərlərin çəkilməsinə dair məsələlər öz əksini tapıb. Ukrayna və Belarusun aparıcı informasiya agentlikləri yayımlanan məqalələrdə Xəzərin statusunun müəyyənləşdirilməsi tarixi uğur kimi qiymətləndiriblər. Bildirilib ki, Konvensiyaya əsasən, Xəzər dənizində, potensial olaraq, böyük neft və qaz ehtiyatlarının bölünməsi əksini tapıb. Dövlət başçıları ərazi sularına bitişik balıqçılıq zonaları barədə razılıq əldə ediblər ki, burada da xüsusi balıq ovu hüququ təmin olunacaq. Ukraynanın Ukrinform, UNİAN, Belarusun BELTA, Sputnik informasiya agentlikləri oxuculara Xəzəryanı ölkələrin dövlət başçılarının V Zirvə toplantısı çərçivəsində keçirilən ikitərəfli görüşlər haqda da məlumat veriblər. Görüşdə Qazaxıstanın dövlət başçısı Azərbaycan Prezidentinin Aktauda Xəzəryanı ölkələrin dövlət başçılarının V Zirvə toplantısında iştirakının əhəmiyyətini vurğulayıb. Xüsusi olaraq, qeyd edilib ki, Kurık və Lyanyunqan limanlarının açılması Azərbaycan və Qazaxıstan arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanlar vəd edir.

Qazaxıstan KİV-ləri Prezident Nursultan Nazarbayevin Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyevin Xəzərin statusunun müəyyənləşdirilməsi ilə bağlı xidmətləri barədə dediklərinə də diqqət çəkib: "Bugünkü görüş və nəhayət, bu Konvensiyanın imzalanması çox mühüm hadisədir. Xatırlayıram ki, Ulu Öndər Heydər Əliyev bunun üzərində çox güclü işləyib. Mən demişəm. Mən düşünürəm ki, indi o, bizim nəhayət, bu Konvensiyanı imzalamağımıza, bu, çox mühüm məsələni həll etdiyimizə görə çox şad olardı". Vurğulamaq yerinə düşər ki, Xəzərin hüquqi statusu ilə bağlı Konvensiya sənədi üzərində işə 1996-cı ildən başlanılıb. 2003-cü il mayın 14-də Astanada Azərbaycan, Rusiya və Qazaxıstan arasında "Xəzərin dibinin orta xətt üzrə milli sektorlara bölünməsi, su səthinin ümumi istifadəsi" haqqında üçtərəfli saziş imzalanıb və tərəflər Xəzərin dibinin bölünməsinə dair yekun razılığa imza atıb.

Hazırlanan reportaj və məqalələrdə bildirilir ki, Xəzər regionunda belə bir tarixi hadisənin baş verməsi coğrafi, iqtisadi, eləcə də, iki ölkə arasında münasibətlərin daha da dərinləşməsi baxımından olduqca əhəmiyyətlidir. Kurık limanının açılması iqtisadi inteqrasiyanı daha da sürətləndirəcək. Azərbaycanda Ələt limanının da istifadəyə verilməsi iki qardaş ölkənin tranzit imkanlarından geniş istifadəsini təmin edəcək ki, bunun da iqtisadi və siyasi cəhətdən mühüm səmərəsi danılmazdır.

Qazaxıstanın "Today", "Nur", "Tengrinews" və digər xəbər portallarında Konvensiyanın imzalanmasının Xəzəryanı ölkələr arasında əməkdaşlıq münasibətlərinin uğurla inkişaf etməsinə təkan verəcəyi vurğulanıb. Bildirilib ki, ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələri Xəzər dənizində sabitliyin və təhlükəsizliyin mühüm amilinə çevriləcək.

Azərbaycan tərəfinin güclü siyasi iradəsi, xoşməramlı niyyəti bu Konvensiyanın imzalanmasında əhəmiyyət kəsb edir. Azərbaycanın Xəzərətrafı ölkələrlə ikitərəfli və çoxtərəfli münasibətləri yüksək səviyyədə əməkdaşlığın davamlı olmasına gətirib çıxarır.

Xəzər dənizinin hüquqi statusuna dair Konvensiyanın imzalanması Xəzəryanı dövlətlər arasında əməkdaşlığa və dostluğa daha böyük töhfələr verəcək.

***Nəzakət ƏLƏDDİNQIZI***

## "Sözügedən Konvensiya bütün Xəzəryanı dövlətlər, o cümlədən Azərbaycan üçün olduqca faydalıdır"



Avqustun 12-də Qazaxıstanın Aktau şəhərində Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısında Xəzər dənizinin hüquqi statusuna dair Konvensiyanın imzalanması tarixi əhəmiyyətə malikdir. Bunu Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, Yeni Azərbaycan Partiyasının Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva bildirib. O xatırladıb ki, Azərbaycan bu sənədin hazırlanmasının bütün mərhələlərində konstruktiv işləyib və digər Xəzəryanı ölkələr kimi bu sənədin imzalanmasına öz töhfəsini verib.

Dondurulmuş və mübahisəli yataqların Xəzərdə tarixi razılaşma nəticəsində birgə işləniləcəyini, bunun Xəzəryanı dövlətlərə və xalqlara fayda gətirəcəyini deyən millət vəkili əlavə edib ki, Zirvə toplantısında Xəzər dənizinin hüquqi statusuna dair Konvensiyanın imzalanması, hər şeydən əvvəl, xoş məram, qarşılıqlı etimad, ortaq maraqlar və mehriban qonşuluq əlaqələri sayəsində baş tutub. Ümumiyyətlə, Azərbaycan hüquqi statusla bağlı danışıqların aparıldığı bütün dövr ərzində beynəlxalq hüquqa və qarşılıqlı etimada söykənən milli mənafelərini müdafiə edib. Konvensiya bütün Xəzəryanı dövlətlər, o cümlədən Azərbaycan üçün olduqca faydalıdır. Xəzərin karbohidrogen ehtiyatlarının Qərb bazarlarına daşınması üçün dənizin dibindən kəmərlərin çəkilməsi üzərində maneə aradan qaldırılacaq və əməkdaşlıq əlaqələri xüsusilə iqtisadi baxımdan bütün Xəzəryanı dövlətlər üçün mənfəətli olacaq. Xəzərin statusunun müəyyənləşdirilməsi, eyni zamanda, yeni kəmərlərin inşası baxımından da əhəmiyyətlidir. Bu isə Xəzəryanı dövlətlərin əməkdaşlıq imkanlarını daha da genişləndirəcək.

## "Azərbaycanın yaratdığı müasir infrastruktur Xəzəri mühüm nəqliyyat arteriyasına çevirə bilər"



Xəzəryanı ölkələrin dövlət başçılarının V Zirvə toplantısında Xəzər dənizinin hüquqi statusuna dair Konvensiyanın imzalanması Azərbaycan da daxil olmaqla, bütün Xəzəryanı ölkələrin tarixində çox mühüm hadisədir.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Musa Quliyev söyləyib. Milli Məclisin deputatı deyib: "Bu məsələ uzun illərdir müzakirə olunurdu, bununla bağlı müxtəlif formatlarda danışıqlar aparılırdı. Nəhayət Xəzərin hüquqi statusu ilə bağlı sahil dövlətlərinin ikitərəfli və çoxtərəfli görüşləri öz məntiqi nəticəsini verdi. Mətbuata bəyanatı zamanı Prezident İlham Əliyevin qeyd etdiyi kimi, imzalanmış Konvensiya Xəzəryanı ölkələrin sıx qarşılıqlı fəaliyyəti, iqtisadi, nəqliyyat xarakterli məsələlərin, xalqlarımızın həyat səviyyəsinin yaxşılaşmasına kömək edəcək məsələlərin həlli üçün geniş perspektivlər açır".

Musa Quliyev qeyd edib ki, beynəlxalq əməkdaşlığa xüsusi önəm verən Azərbaycan qonşu dövlətlərlə birgə irimiqyaslı layihələr həyata keçirir. Eyni zamanda, Azərbaycan öz əlverişli coğrafi yerləşməsinə görə Asiya və Avropa qitələri arasında körpü rolunu oynayır və Avrasiya məkanında aparıcı rola malik olan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərində önəmli yer tutur. Azərbaycan mövcud nəqliyyat potensialını və tranzit imkanlarını artırmaq məqsədilə böyük sərmayələr qoyur, ölkə daxilində və regionda iri miqyaslı infrastruktur layihələrini həyata keçirir. Dövlətimizin başçısının mətbuata bəyanatında vurğuladığı kimi, Azərbaycan qitələri birləşdirəcək nəqliyyat infrastrukturuna fəal surətdə sərmayə yatırır və reallaşdırdığı layihələr Xəzəri mühüm nəqliyyat arteriyası kimi nəzərdən keçirməyə imkan verir. Bu baxımdan qeyd edə bilərik ki, Azərbaycanın yaratdığı müasir infrastruktur Xəzəri mühüm nəqliyyat arteriyasına çevirə bilər.

Konvensiyada Azərbaycanın təkliflərinin yer almasını ölkəmizin regiondakı nüfuzunun göstəricisi kimi dəyərləndirən deputat bildirib ki, "Xəzər beşliyi" dövlət başçılarının imzaladığı sənəd xoş məram, etimad, qarşılıqlı ehtiram, müştərək mənafe və mehriban qonşuluq əlaqələri sayəsində reallaşdı. "Hesab edirəm ki, region ölkələri, xüsusən Azərbaycan Konvensiyadan daha çox iqtisadi fayda götürəcək. Sənədə görə Xəzərin karbohidrogen ehtiyatlarının Qərb bazarlarına daşınması üçün dənizin dibindən kəmərlərin çəkilməsi üzərində olan maneə aradan qaldırılır. Bütün bunları nəzərə alaraq qeyd edə bilərik ki, Xəzər dənizinin karbohidrogen, su, bioloji ehtiyatlarının səmərəli istifadəsi üçün çox mühüm bir sənəd imzalanıb. Bu Konvensiya regionda sülhə, barışa, iqtisadi inkişafa, dostluğa xidmət edəcək",- deyə Milli Məclisin deputatı vurğulayıb.

## Dünya Səhiyyə Təşkilatının Baş direktoru: Azərbaycanda Davamlı İnkişaf Məqsədlərinin tətbiqi digər ölkələr üçün örnəkdir

**Dünya Səhiyyə Təşkilatının Baş direktoru Dr.Tedros Adhanom Qebreyesusun Səhiyyə Naziri Oqtay Şiraliyevə minnətdarlıq məktubu ünvanlayıb. Bu barədə nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib. Məktubda səhiyyə nazirinə 4-6 iyul 2018-ci il tarixlərində Azərbaycana səfər imkanının yaradılmasına görə təşəkkür və minnətdarlıq bildirilib, Səhiyyə Nazirliyini 100 illik yubileyi təbrik edilib.**

World Health Organization

Baş direktor bildirib: "Ölkənizin yüksək vəzifəli nümayəndələri ilə keçirilən görüşlər və Davamlı İnkişaf Məqsədləri (DİM) Konfransında iştiraka əsasən deyə bilərəm ki, Azərbaycanın DİM-in tətbiqi və hər kəs üçün sağlamlıq hədəflərinə sadiqliyi digər ölkələr üçün örnəkdir. Ölkəniz və DST arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi məqsədilə imzalanan birgə bəyanat səfərin ən əhəmiyyətli hissəsi oldu. DİM-in tətbiqi üçün ölkədə mövcud olan siyasi iradə, o cümlədən malyariya, poliomielit və qızılca kimi xəstəliklərin aradan qaldırılması da daxil olmaqla, Azərbaycanda səhiyyə sahəsində əldə olunan uğurlar məni heqiqətən valeh etdi. Müzakirə etdiyimiz kimi, səhiyyənin profilaktikası universal səhiyyənin əsasını təşkil edir, xəstəliklərin qarşısının vaxtında alınması və sağlamlığın təşviqi, qeyri-infeksion xəstəliklərin aradan qaldırılması kimi əsas aspektləri özündə cəmləşdirir.

Səfər çərçivəsində Azərbaycanın üç rayonunda icbari tibbi sığortanın pilot layihə kimi tətbiqi və uğurla həyata keçirilməsi haqda məlumatlanmaq çox maraqlı idi. DST-nın Ölkə və Regional Ofisləri vasitəsilə ölkənizdə ilkin səhiyyə və tibb sahəsinin maliyyələşdirilməsi kimi iddialı planların irəliləməsi istiqamətində lazımi dəstəyi göstərməyə hazırıq. Mən, xüsusən Milli Onkologiya Mərkəzində təşkil olunan səfər və buradakı heyətin əzmkarlığını və peşəkarlığını, o cümlədən mərkəzdə pasiyentlərə, eləcə də onların yaxınlarına göstərilən diqqət və qayğını, ümumiyyətlə Azərbaycanın səhiyyə sisteminin səmərəliliyini yüksək qiymətləndirdim. Eyni zamanda, ölkənizdə həbsxanalarda vərəmin qarşısının alınması və nəzarət məqsədilə yaradılan Əməkdaşlıq Mərkəzini nəzarətdə saxlayacağıq. Çünki bu, vərəmlə mübarizədə unikal nümunədir. Risk qrupuna daxil olan əhaliyə xidmət kimi inklüziv yanaşma may ayında Dünya Səhiyyə Assambleyasında DST-ə üzv dövlətlər tərəfindən qəbul edilmiş Ümumi İş Planına tam olaraq uyğun modeldir".



## "Konvensiya Azərbaycan da daxil olmaqla Xəzəryanı ölkələr üçün böyük iqtisadi dividendlər vəd edir"

**Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın imzalanması tarixi əhəmiyyət daşımaqla yanaşı, Xəzəryanı ölkələr üçün yeni inkişaf imkanları açacaq. Bunun tarixiliyi sadəcə Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi məsələsinin 22 ildən artıq zaman tələb etməsi deyil, əslində daha çox anlaşma imzalandıqdan sonra regiona gətirəcəyi təhlükəsizlik və eləcə də iqtisadi inkişafa verəcəyi töhfə ilə əlaqədardır.**

Bu sözləri AZƏRTAC-a açıqlamasında iqtisadçı ekspert Vüqar Bayramov deyib. Ekspert qeyd edib ki, Azərbaycan Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsində aktiv və eləcə də konstruktiv iştirak edən tərəflərdən biridir: "Azərbaycan tərəfi beynəlxalq normalar çərçivəsində Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi və buna uyğun olaraq da Xəzərin bölgüsünün həyata keçirilməsinin tərəfdarı idi. Bu Konvensiya nəticə etibarilə Xəzəryanı ölkələrin Xəzərdən daha faydalı şəkildə istifadəsinə, daha səmərəli şəkildə faydalanmasına imkan verəcək. Bu, bir tərəfdən imkan verəcək ki, Xəzəryanı ölkələr arasında əməkdaşlığı gücləndirmək mümkün olsun, digər tərəfdən isə Xəzərin beynəlxalq yükdaşımalarda rolunu və funksiyasını artıra bilsin. Çünki burada söhbət beynəlxalq yükdaşımalar, boru kəmərlərinin çəkilməsi və digər məsələlər üzrə razılıq almaqdan gedir. Nəticə etibarilə Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi Xəzər üzərindən daşınan yüklərin kəmiyyətinə təsir göstərəcək".

"Azərbaycan Xəzər üzərindən daşınan yüklərin payının artmasında maraqlıdır. Ələtdə Bakı limanının qurulması və Azərbaycanın mövcud infrastrukturu Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi kontekstində Azərbaycan və Xəzər üzərindən daha çox yüklərin daşınmasına imkan verəcək ki, bu da Xəzəryanı ölkələrin beynəlxalq yükdaşımalardan əldə etdiyi gəlirin artmasına zəmin yaradacaq. Belə olan halda Azərbaycan da Xəzəryanı ölkə olduğu üçün beynəlxalq yükdaşımalardan əldə olunan gəlirin həcminin müəyyənləşdirilməsi baxımından faydalanan ölkələrdən olacaq. Çünki, Azərbaycanda Bakı Beynəlxalq Dəniz Ticarət Limanının qurulması məhz elə ölkəmiz üzərindən daşınan yüklərin həcminə təsir göstərəcək. Bu da Azərbaycanın beynəlxalq yük daşımalardan əldə etdiyi gəlirin həcmini artıracaq. Beləliklə, Xəzəryanı ölkələr daxil olmaqla Xəzər üzərindən daşınan yüklərin həcmində artımlar müşahidə olunacaq və bu da sözügedən ölkələrin gəlirlərinin artması baxımından vacibdir".

Konvensiyanın imzalanmasının boru kəmərlərinin çəkilməsinin və bu istiqamətdə fəaliyyətin gücləndirilməsi, enerji resurslarının daşınması baxımından çox vacib olduğunu deyən V.Bayramov qeyd edib: "Bu, fərqli bazarlara çıxış imkanları deməkdir. Xəzəryanı ölkələrin fərqli bazarlara çıxış yolu əldə etməsi nəticədə enerji resurslarının daha məqbul qiymətə bazara çıxarılması baxımından vacib hesab olunur. Eləcə də Konvensiyaya əsasən, Xəzəryanı ölkələr qarşılıqlı olaraq sərhədlərin və xüsusən də Xəzərin dibindəki ehtiyatların istifadəsi ilə bağlı qarşılıqlı olaraq anlaşacaqlar. Azərbaycan artıq Rusiya və Qazaxıstanla belə bir anlaşma imzalayıb. Bu baxımdan söhbət Türkmənistan və İranla anlaşmanın əldə olunmasından gedir. İran Prezidenti Azərbaycanda səfərdə olarkən mübahisəli hesab olunan yataqların birgə işlənməsi ilə bağlı ilkin anlaşma imzalanmışdı. Bu isə o deməkdir ki, əslində Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi fonunda mübahisəli yataqların işlənməsi prosesi kifayət qədər genişdir. Azərbaycan praktik olaraq bu kontekstdə pozitiv və eyni zamanda, konstruktiv mövqe nümayiş etdirən ölkələrdəndir. Azərbaycan Prezidentinin siyasəti də məhz Xəzəryanı ölkələrin Xəzərin ehtiyatlarından səmərəli və qarşılıqlı fayda əsasında istifadəsinə nail olmaqdan ibarətdir. Azərbaycan mübahisəli yataqların birgə işlənməsi ilə bağlı tərəflərlə müzakirələr aparıb, qeyd etdiyimiz kimi, İranla artıq razılıq əldə edilib, Türkmənistanla da oxşar razılığın əldə ediləcəyi gözlənilir. Bu isə o deməkdir ki, keçmiş SSRİ dağıldıqdan sonra uzun müddət gündəmdə olan məsələ praktik olaraq həllini tapdı. Bütün bu proseslər boyu Azərbaycan məhz Xəzərin statusunun müəyyənləşdirilməsi və bu istiqamətdə razılığın əldə edilməsində aktiv çıxış edən ölkələrdən biri kimi yadda qaldı".

"Xəzərin statusunun müəyyənləşdirilməsinə Azərbaycan öz töhfəsini bəxş etməklə yanaşı, eyni zamanda, Xəzəryanı ölkələrin bu anlaşmadan faydalanması və nəticə etibarilə anlaşmanın sözügedən ölkələrə stabillik, sülh və iqtisadi gəlir gətirməsi anlamında təbii ki, anlaşmanı dəstəkləyən ölkələrdən biri kimi həm də Xəzəryanı regionun inkişafında maraqlı ölkədir. Bu Konvensiya Xəzəryanı ölkələr üçün yeni inkişaf imkanları vəd edir. Beynəlxalq yükdaşımaların həcminin, ölkələrin gəlirlərinin həcminin artması nəticə etibarilə yeni iş yerlərinin açılması, məşğulluğun təmin edilməsi baxımından çox vacibdir. Bütövlükdə, anlaşma Azərbaycan da daxil olmaqla Xəzəryanı ölkələr üçün böyük iqtisadi dividendlər vəd edir", - deyə ekspert vurğulayıb.

## İran səfiri: "Xəzər dənizi suverenlik və təhlükəsizlik dənizidir"

*İranın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cavad Cahangirzadənin SƏS TV-yə müsahibəsi*



***- Cənab səfir, avqustun 12-də Qazaxıstanın Aktau şəhərində Xəzəryanı ölkələrin dövlət başçılarının V Zirvə toplantısında Xəzər dənizinin hüquqi statusuna dair Konvensiya imzalanıb. V Xəzər Sammitinin yekununda İlham Əliyev, Vladimir Putin, Nursultan Nazarbayev, Həsən Ruhani və Qurbanqulı Berdıməhəmmədov öz imzaları ilə Xəzər dənizinin hüquqi statusunu müəyyən edən sənədi təsdiq ediblər. Bu Konvensiyanın əhəmiyyətini necə qiymətləndirirsiniz?***

- İlk öncə sizə və Azərbaycan xalqına salamlarımı çatdırıram. 20 ildən artıq idi ki, Xəzər dənizinin hüquqi statusu ilə bağlı məsələ gündəmdə idi. 5 ölkənin xarici işlər nazirləri mütəmadi görüşlər keçirirdi və bu məsələ ətrafında danışırdılar. Ümumiyyətlə, Xəzərin statusu ilə bağlı xeyli müzakirələr aparılıb. Əvvəllər Xəzərin hüquqi statusunu Sovet Rusiyası və İran (26 fevral 1921-ci il) və SSRİ ilə İran (25 mart 1940-ci il) arasında bağlanmış iki müqavilə müəyyənləşdirirdi. Daha sonra Sovet hökuməti dağıldı və Azərbaycan, Türkmənistan, Qazaxıstan dövlətləri öz müstəqilliklərini elan etdilər. Bundan sonra qərara gəlindi ki, Xəzərin hüquqi statusu məsələsi ilə bağlı danışıqlar yenidən başladılsın. Nəhayət bu ilin avqustun 12-də Qazaxıstanın Aktau şəhərində Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısında Xəzər dənizinin hüquqi statusuna dair Konvensiya imzalandı.

Bu Konvensiyanın üstünlüklərini bir neçə aspektdən izah edə bilərik. Birincisi, Xəzər dənizi bu 5 ölkənin və bu ölkələrin xalqlarınındır. İkincisi, Xəzər dənizi suverenlik və təhlükəsizlik dənizidir. Üçüncüsü, başqa ölkələr gəlib burada müdafiə sahəsi ilə bağlı işlər apara bilərlər. Dördüncüsü, Xəzər dənizinin ətrafındakı ölkələr bir-biri ilə iqtisadi-ticari əlaqələr yaradırlar. Konvensiyaya əsasən Xəzər dənizin səthi, sərhədləri ilə bağlı bəzi məsələlər sonraya qaldı. Mən Xəzər dənizinin hüquqi statusuna dair Konvensiyanın imzalanması münasibətilə Azərbaycan Prezidenti cənab İlham Əliyevi və ölkə xalqını təbrik edirəm.

***- Bu il martın sonunda İran prezidenti Həsən Ruhaninin Bakıya səfəri zamanı imzalanmış Xəzər dənizində müvafiq bloqların birgə işlənilməsi haqqında Anlaşma Memorandumu konvensiyanın razılaşdırılması yolunda mühüm tarixi əhəmiyyət daşıyan sənəd olub. İstərdim bu barədə fikirlərinizi bildirəsiniz?***

- Hesab edirəm ki, Xəzər dənizində müvafiq bloqların birgə işlənilməsi haqqında Anlaşma Memorandumu da Azərbaycan və İran üçün mühüm əhəmiyyətə malik idi. Anlaşma Memorandumu da aparılan uzunmüddətli danışıqlar nəticəsində mümkün olmuşdu. Neçə illər idi ki, bu danışıqlar gedirdi. Düşünürəm ki, hər iki ölkə yaxın zamanda uğurlu alınmış bu danışıqların nəticəsindən öz faydalarını götürəcəklər.

***- Ümumiyyətlə, Xəzərdə mübahisəli yataqlar məsələsi də xeyli müddət idi ki, gündəmdə idi. Bu yataqların birgə işlənməsi Azərbaycan və İran dövlətlərinə hansı faydaları verəcək?***

- Çox faydalar verə bilər. Xəzər dənizi çox qiymətli bir gövhərdi. Eləcə də Allahın bir vergisidir. Xəzər dənizi bir çox ölkələrə yardımçı olur. Buranın təkcə nefti, balıq məhsulları deyil, həm də ekoloji mühiti bir çox ölkələrə əlavə imkanlar açır. Həmin ölkələrin rahat yaşaması üçün böyük rola malikdir. Hesab edirəm ki, Xəzər dənizinin hüquqi statusuna dair Konvensiyanın imzalanması bu sahədə çox əhəmiyyətlidir. Bəzi məhsulların Azərbaycandan İrana, eləcə də İrandan Azərbaycana gəmilər vasitəsilə ixracın və idxalın edilməsində Xəzər dənizi müstəsna rola malikdir. Azərbaycanın Ələt limanı ilə İranın Ənzəli və Əmirabad limanları arasında əməkdaşlıq bu əlaqələri daha da inkişaf etdirə bilər. Turizm sahəsinin inkişaf etdirilməsi istiqamətində də Xəzər dənizi xüsusi rola malikdir. Bildiyiniz kimi İran Hərbi Dəniz Qüvvələrinə məxsus iki gəmi Azərbaycanda keçirilən dəniz atışları üzrə yarışda iştirak etdi. Ümumiyyətlə, Xəzər dənizi Azərbaycan, İran, Rusiya, Türkmənistan və Qazaxıstanındır. Başqa ölkələrin bu dövlətləri bir-birinə vurması hallarına qarşı isə Konvensiya mühüm əhəmiyyətə malikdir.

***- Son olaraq ABŞ-İran münasibətləri haqqında fikirlərinizi almaq istərdik. ABŞ-ın İrana tətbiq etdiyi sanksiyalar bu ölkəyə nə vəd edir ?***

- Ümumiyyətlə, İran dövləti lazımi addımları qabaqcadan atıb. İran dövləti öz çiynini xalqına söykəyib. İran böyük dövlətdir və xeyli əhalisi var. Kənd təsərrüfatı, nanotexnologiya, rabitə, tibb sahəsində və s. biz çox inkişaf etmişik. ABŞ prezidenti Donald Trampın İrana tətbiq etdiyi sanksiyaların müxtəlif formaları da olub. Yaxın, dost, qardaş ölkələr bizə dəstək olublar. Bu ilin avqustun 12-də Azərbaycan Prezidenti cənab İlham Əliyevlə İran prezidenti cənab Həsən Ruhani düz 12-ci dəfə görüşdülər. İndiyədək Həsən Ruhani heç bir prezidentlə bu qədər görüş keçirməyib. Bu o deməkdir ki, bizim qardaşlığımızın davamı var və möhkəm təməllər üzərində qurulub. ABŞ tək İrana deyil, Rusiyaya, Türkiyəyə də sanksiyalar tətbiq edib. Bu onu göstərir ki, ABŞ proseslərə birtərəfli baxır. Əgər dünya ölkələri ABŞ-ın qabağında dayanmasa bu sanksiyalar Avropaya kimi gedəcək. Hətta ABŞ İngiltərəyə mesaj verib ki, əgər bizimlə olmasaz sizə qarşı təzyiq göstəriləcək. Bütün bunlar onu göstərir ki, ABŞ-a dost, qonşu, qohum fərq etmir. Hətta belə misal da var: "Dədəm mənə kor deyib, hər yetənə vur deyib". Biz İran tərəfi

**Ceyhun Rasimoğlu**

# Azərbaycanın yeni keyfiyyətli inkişaf modeli: uğurların işığında

***Çağdaş dünyamızın mürəkkəb və ziddiyyətli prosesləri fonunda müstəqil dövlət quruculuğu böyük zəhmət və uzaqgörənlik tələb edir. Azərbaycan təcrübəsi bu baxımdan digərləri üçün nümunədir. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu müstəqil və demokratik dövlət quruculuğu kursu sürətlə yeniləşən dünyanın tələblərinə cavab verir. Prezident İlham Əliyev həmin kursu daim inkişaf etdirir və şəraitə uyğun olaraq yeniliklər həyata keçirir. Mütəxəssislər bu kontekstdə Azərbaycanda keyfiyyətcə yeni inkişaf modelinin reallaşdırıldığı qənaətindədirlər. Bu barədə Baş nazir Novruz Məmmədov hökumətin "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il üçün iş planı"nda nəzərdə tutulmuş məsələlərə dair aidiyyəti qurumların iştirakı ilə keçirilən iclasında fikir ifadə edib. Azərbaycan müstəqil dövlət quruculuğunun bütün istiqamətlərində əldə etdiyi nailiyyətləri davam etdirir və yeni keyfiyyətli inkişaf modelinin reallaşdırılmasına başlanıb. Bu prosesin daxili və xarici siyasət aspektlərində bir sıra mühüm məqamların geniş təhlilinə zərurət var.***




## Milli dövlət quruculuğu: tarixi reallıqlar və müasir şərtlər

Müasir mərhələdə sürətli geosiyasi proseslər gedir. Dünya üzrə intensiv dəyişikliklər baş verir və bu, demək olar ki, bütün sahələri əhatə edir. Qlobal transformasiya trendləri müstəqilliyini əldə etmiş dövlətlər qarşısında milli dövlətçiliyi dayanıqlı olaraq inkişaf etdirmək kimi mühüm strateji vəzifə qoyur. Təsadüfi deyil ki, tanınmış mütəxəssislərin fikrincə, müstəqilliyinə nail olmuş ölkələrin heç də hamısında müstəqil dövlət quruculuğu prosesi uğurlu olmayıb.

Cənubi Qafqaz da qlobal geosiyasi trendlərdən kənarda qala bilməz. Bu coğrafiyadakı hər bir dövlət onların təsirlərini öz üzərində hiss edir. Bu kontekstdə Azərbaycanda müstəqil dövlət quruculuğu kursunun inkişafı məsələsi aktuallıq kəsb edir. İyulun 26-da "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il üçün iş planı"nda nəzərdə tutulmuş məsələlərə dair aidiyyəti qurumların iştirakı ilə keçirilən iclasda Baş nazir Novruz Məmmədov məsələnin bu aspektini xüsusi vurğulayıb. Baş nazir tədbirdəki çıxışı zamanı ifadə edib: "Son illərdə Prezident İlham Əliyevin uzaqgörən və müdrik rəhbərliyi nəticəsində Azərbaycanda yeni keyfiyyətli inkişaf modelinin formalaşmasına xüsusi diqqət yetirilir və bu istiqamətdə böyük işlər görülür".

Bu fikrin üzərində geniş dayanmağa ehtiyac duyulur. Sirr deyil ki, Cənubi Qafqaz kimi mürəkkəb geosiyasi dinamikaya malik regionda davamlı inkişaf kursu hazırlayıb həyata keçirmək asan məsələ deyil. Lakin ulu öndər Heydər Əliyev keçən əsrin 90-cı illərində mükəmməl bir inkişaf konsepsiyası və onu reallaşdırmaq üçün təkmil taktiki proqramlar işləyib hazırladı. Nəticədə, Azərbaycan öncə dövlətçiliyə olan sui-qəsdləri uğurla dəf etdi. Paralel olaraq "Əsrin müqaviləsi" adlanan tarixi layihənin həyata keçirilməsi qarşısında duran bütün əngəlləri də aşdı.

Qısa müddətdə Azərbaycanda müstəqil dövlət quruculuğu kursu ilə ölkənin bütün sahələrində islahatlar yolu ilə davamlı inkişafı xətti arasında sıx harmoniya yaradıldı. Bu tezisin mənası ondan ibarətdir ki, Azərbaycanda müstəqil dövlət quruculuğunda əldə edilən bütün nailiyyətlər həm dövlətçiliyin tədrici güclənməsinə, həm də insanların rifah halının yüksəlməsinə xidmət etməyə başladı. Dövlətin inkişafı insanın inkişafı oldu və əksinə, hər bir vətəndaş dövlətçilik naminə fəal çalışmaq üçün yetişdirildi.

Bütün bunlar Azərbaycanda sosial-siyasi və iqtisadi sabitliyə səbəb oldu. Bu kursu Prezident İlham Əliyev son 15 ildə böyük uğurla inkişaf etdirir. Yəni hər şeydən öncə, dövlət başçısı varislik prinsipinə ciddi əməl edir. Ulu Öndərin yaratdığı kursdan kənara çıxma yoxdur. Eyni zamanda, müasir dünyamız sürətlə dəyişdiyindən, inkişaf modeli də təkmilləşməli, müasir tələblərə cavab verməlidir. Məhz bu aspektdə Prezident İlham Əliyev sözün həqiqi mənasında uzaqgörən və müdrik dövlət başçısı kimi özünü tam təsdiq etməkdədir. Bunun bariz nümunəsi Azərbaycanda yeni keyfiyyətli inkişaf modelinin formalaşmasıdır.

İnkişaf modelinin yeni mərhələsində əsas faktor kimi insan kapitalı götürülür. İnsanın inkişafı naminə böyük və sistemli proqramlar həyata keçirilir. Azərbaycanda reallaşan hər bir inkişaf proqramı cəmiyyətin tərəqqisinə xidmət edir. Burada sosial, siyasi, iqtisadi, mədəni, elm, təhsil və s. sferaların hər biri bir-biri ilə uyğunlaşdırılmış formada inkişaf etdirilir. Daxili və xarici siyasət birbirini üzvi şəkildə tamamlayır.

## Beynəlxalq təşkilatların hesabatları: davamlı yüksəlişi təsdiqləyən faktlar

Prezident İlham Əliyevin yeni keyfiyyətli inkişaf modeli strateji hədəflərinə, əhatə dairəsinə, məzmununa və konkret reallaşma mexanizminə görə bitkindir. Mütəxəssislər məsələnin bu tərəfinə xüsusi vurğu edərək belə nəticə çıxarırlar ki, Azərbaycan iqtisadiyyatının yeni yüksəliş mərhələsi başlayır. Bu proqnostik tezisə beynəlxalq reytinq agentliklərinin hesabatlarında yer almış qiymətləndirmələr kontekstində yanaşanda, onun əsaslı olduğu qənaəti əldə edilir.

Məsələn, tanınmış "Moody's" agentliyinin son hesabatında göstərilir ki, Azərbaycan iqtisadiyyatı 2018-ci ildə 1,5 faiz, 2019-cu ildə isə 3 faiz artacaq. İndiki mürəkkəb geosiyasi və iqtisadi vəziyyət şəraitində 1,5 faiz artım yüksək göstəricidir. Çünki həm dünya miqyasında iqtisadi-maliyyə böhranı davam edir, həm də böyük dövlətlər arasında əsl iqtisadi müharibə başlayıb. Bundan əlavə, gələn il üçün Azərbaycanda iqtisadi yüksəlişin bu ilkindən 2 dəfə çox olmasının proqnozlaşdırılması birbaşa dövlətin həyata keçirdiyi inkişaf kursunun perspektivinə beynəlxalq mütəxəssislərin də böyük inamının olmasının ifadəsidir.

Onu vurğulayaq ki, Cənubi Qafqazda başqa heç bir ölkə üçün belə bir proqnoz verilmir. Ermənistanda ən yaxşı halda durğunluq gözlənilir, Gürcüstanın, ümumiyyətlə, sosial-iqtisadi vəziyyətinin necə olacağı məlum deyil (iqtisadi müharibə və Rusiya ilə münasibətlərin pis olması bu ölkəni çox həssas məqama gətirib). Bizim regiona çox yaxın olan Rusiya, Türkiyə və İran da güclü sanksiyalar altındadırlar. Rusiyanın inkişafı çox zəifdir, İranda inkişafdan danışmaq risklidir, Türkiyə isə 2018-ci ildə 7 faiz yüksəliş proqnozlaşdırır, lakin 2019-cu ildə bu rəqəmin 3-4 faiz olacağı gözlənilir. Yəni regionun böyük dövlətləri içərisində ən sürətlə inkişaf edəni Türkiyədir, ancaq onun da sürəti gələn il 2 dəfə azala bilər.

Bu müqayisələr göstərir ki, regionda yalnız Azərbaycan artan templə inkişaf yolundadır. Bəs bunun səbəbi nədir? Əlbəttə, ölkə rəhbərinin yeni keyfiyyətli inkişaf modelini hazırlayıb reallaşdırması başlıca səbəbdir. Buradan aydın görünür ki, müasir mərhələdə müstəqil dövlət qurmaq olduqca böyük zəhmət, bilik, səriştə və si-

# Azərbaycanın yeni keyfiyyətli inkişaf modeli: uğurların işığında

yasi iradə tələb edir.

Bu kontekstdə "Moody's" agentliyinin son hesabatında yer almış bir fikri xatırlamağa dəyər. Agentlik yazır ki, 2016-cı ildə neftin qiyməti orta hesabla 44 dollar səviyyəsində olubsa, 2017-ci ildə bu rəqəm 54 dollar təşkil edib. Bu dəyişikliyin fonunda Azərbaycan milli valyutanın sabitliyi və inflyasiyanın azalması sayəsində iqtisadi inkişaf tempini tədricən bərpa edib. Gələn il üçün iqtisadi yüksəlişin 2 dəfə artması isə bir tərəfdən neft məhsullarının qiymətinin yüksəlməsi ilə əlaqəlidirsə, digər tərəfdən, Azərbaycan məhsullarının ixracının artması ilə bağlıdır.

Yəni tanınmış beynəlxalq agentliyin proqnozları arxasında ciddi elmi və faktiki araşdırmalar dayanır. Deməli, yeni keyfiyyətli inkişaf modeli Azərbaycanda 2019-cu ildə də sosial və siyasi sabitliyin mövcud olmasını tam təmin edəcək. Çox qarışıq geosiyasi, siyasi və sosial-iqtisadi proseslərin getdiyi bir zamanda bu, olduqca əhəmiyyətli bir faktdır.

Məsələ ondan ibarətdir ki, ixracatı artırmaq hər müstəqil dövlətə müyəssər olmur. Çünki dünya bazarında rəqabət çox güclənib. Hətta böyük iqtisadi potensiala malik ölkələrin sırasında belə idxalı ixracatından artıq olanlar vardır. Azərbaycanda isə son 2 ildə həyata keçirilən islahatların əsas istiqamətləri sırasında (iqtisadiyyatın şaxələndirilməsini və investisiya qoyuluşunu sürətləndirmək, qeyri-neft sektorunun yüksək inkişaf tempini təmin etmək) ixrac imkanlarını genişləndirmək də olub. Bunun əsasında keçən müddətdə Azərbaycan məhsullarının ixrac coğrafiyası genişlənib.

Nümunə kimi deyə bilərik ki, yalnız 2017-ci ilin yanvar ayından 2018-ci il iyunun 30-dək "Azexport.az" portalına dünyanın 96 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 759,4 milyon dollar təşkil edib. Bu, o deməkdir ki, son illərdə dünya bazarlarına çıxan Azərbaycan məhsullarına tələbat artır. Artıq Azərbaycanda istehsal edilən məhsullar çox sayda ölkədə ticarət evlərində satılır. Burada bir məqamı da ayrıca qeyd etmək gərəkdir.

Prezident İlham Əliyev Azərbaycanda qeyri-neft sektorunun inkişafında yeni mərhələnin əsasını qoyan bir neçə sənəd imzalayıb. Məsələn, 18 yanvar 2016-cı il tarixində "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam, 1 mart 2016-cı il tarixində "Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" Fərman verilib. Bu kimi tədbirlər öz səmərəli bəhrəsini verməkdədir. Belə ki, 2018-ci ilin 6 ayı ərzində qeyri-neft sektoru üzrə ixrac 846,5 milyon dollar təşkil edib. Bu siyahıda pomidor, qızıl, elektrik enerjisi və digər vacib məhsullar yer alıb.

Bu kimi nikbin proqnozlar başqa tanınmış beynəlxalq reytinq agentliklərinin hesabatında da yer alıb. Məsələn, "Standard & Poor's" reytinq agentliyi yeni hesabatında göstərir ki, Azərbaycan iqtisadiyyatı qarşıdakı 3 il ərzində, hər il orta hesabla 3 faiz artacaq. Ayrıca, 2019-2020-ci illərdə Azərbaycanda ÜDM istehsalının artımının 3,5 faiz səviyyəsində olacağı proqnozlaşdırılıb. Ölkə iqtisadiyyatına sərmayə qoyuluşunun 2019-cu ildə 2,5 faiz artacağı gözlənilir.

"Standard & Poor's" hesabatında onu da vurğulayıb ki, Azərbaycan üzərinə götürdüyü öhdəliklərə dəqiq əməl edir. Deyək ki, "Şahdəniz" qaz kondensat yatağının hazırlanmasının ikinci mərhələsi iyulun əvvəlində tamamlanıb ki, bu da planlaşdırılmış qrafikə uyğundur. Həmin əsasda agentlik proqnoz verir ki, növbəti 4 ildə Azərbaycanın qaz ixracı artacaq.

Beynəlxalq agentliklər Azərbaycanda həyata keçirilən inkişaf modelinə geniş kontekstdə baxırlar. "Fitch Ratings" beynəlxalq reytinq agentliyi Azərbaycanda sosial və siyasi vəziyyəti araşdırıb və maraqlı nəticələr əldə edib. Bu təşkilatın proqnozuna görə, Azərbaycanda müşahidə olunan geniş sosial və siyasi sabitlik yaxın perspektivdə də davam edəcək. Agentliyin mütəxəssisləri əmindirlər ki, ölkəmizdə makroiqtisadi sabitlik inflyasiyanın 3,2 faizə düşməsi fonunda yüksəlir. Bunun səbəbləri sırasında manatın sabit məzənnəsinin mövcud olması da göstərilir. Maraqlıdır ki, Azərbaycanda dollarlaşma səviyyəsi də azalır. "Fitch Ratings"in məlumatına görə, ölkədə depozitlər üzrə dollarlaşmanın səviyyəsi 67 faizdən 63 faizə, kreditlər üzrə isə dollarlaşmanın səviyyəsi 41 faizdən 39 faizə enib.

Nəhayət, Rusiyanın AKRA reytinq agentliyinin 2018-ci ildə hazırladığı hesabatda da Azərbaycanla bağlı müəyyən araşdırmalar yer alıb. Bu agentliyin hesabatında göstərilir ki, Azərbaycan iqtisadiyyatında bu il 1,5 faiz artım gözlənilir. 2022-ci ildə isə ÜDM 3,2 faizədək artmalıdır. Bundan başqa, bütövlükdə Azərbaycan iqtisadiyyatı 2017-2018-ci illərdə xaricdə daha fəal mövqe tutub. 2018-ci ilin ikinci yarısında da ölkə sənayesinin xammal hissəsində canlanma davam edəcək. Bu prosesə Cənub Qaz Dəhlizi sisteminin təsiri güclü olacaq.

Beynəlxalq reytinq agentliklərinin yuxarıda vurğulanan informasiyaları Azərbaycanda real mövcud olan sosial-iqtisadi və siyasi vəziyyəti əks etdirməklə yanaşı, bütövlükdə yeni inkişaf modelinin perspektivləri haqqında da müəyyən proqnozlar verməyə imkan yaradır. Məsələnin bu tərəfi dövlətçiliyimiz aspektində çox önəmlidir. Çünki indi istənilən ölkə üçün strateji fəaliyyət kursu səmərəli olmasa, çox təhlükələr meydana çıxa bilər. Bu baxımdan inkişafın Azərbaycan modelinin gələcəyi aktual məsələdir. Həmin bağlılıqda ölkənin dinamik təkamül modelinin bir sıra aspektlərinə nəzər salaq.

## Yeni mərhələ: dinamik təkamül modelinin bir sıra xüsusiyyətləri

İlk növbədə, real faktları əks etdirən rəqəmlərə müraciət edək. Dövlət proqramlarının uğurla reallaşdırılması sayəsində regionların tarazlı inkişafına nail olunub. Bu fakt ölkənin potensialının daha da yüksəlməsinə güclü təkan verib. Son 6 ayın göstəriciləri işığında bu fikrin doğruluğu tam təsdiq olunur. Bu müddətdə ümumi daxili məhsul 1,3 faiz artıb. Qeyri-neft sektorunun artımı 2 faiz təşkil edib. Ümumilikdə, sənaye istehsalı 1 faiz, qeyri-neft sənayesi isə 8,8 faiz artıb. Kənd təsərrüfatının inkişafı 7,6 faiz olub. Xarici ticarət dövriyyəsinin artımı 35 faizdir. İxrac 34 faiz artıb.

Ölkə iqtisadiyyatına qoyulan sərmayə də ürəkaçandır - 6 milyard ABŞ dolları! İnflyasiyanın 3 faiz olması fonunda əhalinin pul gəlirləri 9,3 faiz artıb. Azərbaycanın valyuta ehtiyatları 2017-ci ildə 42 milyard ABŞ dolları idisə, son 6 ayda 44,3 milyard ABŞ dolları həcmi təşkil edib! Son 15 ildə isə ölkə iqtisadiyyatına 250 milyard dollar sərmayə qoyulub. May ayında Ələt Beynəlxalq Dəniz Ticarət Limanı istifadəyə verilib. Cənub Qaz Dəhlizi və TANAP-ın rəsmi açılışı baş tutub. Limanın istifadəyə verilməsi Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsindən sonra nəqliyyat sektorunda növbəti böyük hadisədir.

Bütün bunları nəzərdə tutaraq Novruz Məmmədov Nazirlər Kabinetinin sözügedən iclasında vurğulayıb ki, Azərbaycan rəhbərliyi iqtisadi sahədə çox böyük işlər görüb. Belə ki, sosial və iqtisadi infrastruktur quruculuğu uğurla aparılır. Özəl sektor inkişaf edir. Sənayeləşmə sürətlə aparılır və eyni zamanda, aqrar sektorun istehsal və ixrac imkanları genişləndirilir. Bütövlükdə makroiqtisadi sabitlik təmin olunub və əhalinin rifah halı davamlı olaraq yaxşılaşır.

Yuxarıda vurğulanan məqamların fonunda Nazirlər Kabinetinin iclasında "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş yol xəritələrinin icrasına dair hazırlanmış monitorinq və qiymətləndirmə hesabatlarının müzakirəsinin aparılması çox maraqlı və aktualdır.

Hər şeydən öncə, bu, onu bir daha təsdiqləyir ki, Azərbaycanda dövlət quruculuğu və islahatlar proqramları dərindən, sistemli və dəqiq işlənmiş xətt üzrə həyata keçirilir. Dövlət başçısı bu və ya digər mərhələdə nəyin həyata keçirilməli olduğunu zərgər dəqiqliyi ilə müəyyən edib. Strateji Yol xəritələrinin davamlı şəkildə həyata keçirilməsi ölkənin böhranlar dövründə belə sürətli inkişafını təmin etməyə imkan yaradır. Bu, Strateji Yol Xəritəsinin 2017-ci il üzrə icra vəziyyəti ilə bağlı illik monitorinq və qiymətləndirmə hesabatına dair nəticələrdən də aydın görünür. Yol xəritəsində hədəflər üzrə müəyyən edilən işlərin icrası yaxşı vəziyyətdədir. Buna görə də iclasda vurğulanıb ki, strateji yol xəritələrinin icrası ölkədə davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin, inklüzivliyinin və sosial rifahın daha da artırılmasına töhfə verəcək.

Azərbaycan xarici siyasət sahəsində də böyük uğurlar qazanıb. Dünyanın böyük dövlətləri Bakını etibarlı tərəfdaş kimi qəbul edirlər. Azərbaycanın əməkdaşlığı qarşılıqlı inama əsaslanır. Birbirinin ardınca reallaşan nəhəng layihələrdə dünyanın bir çox ölkəsi iştirak edir. Bu proses getdikcə daha çox dövlətin Azərbaycanla əməkdaşlığa can atması ilə müşayiət olunur. Təbii ki, bütün bu nailiyyətlərin memarı Azərbaycan Prezidenti İlham Əliyevdir.

Dövlət başçısı ölkəni beynəlxalq münasibətlərin tamhüquqlu üzvünə çevirib. Bunun üçün böyük diplomatik fəallıq göstərilib və konkret proqramlar həyata keçirilib. Prezident İlham Əliyev son 7 ayda 6 ölkəyə səfər edib. Ölkə rəhbəri 6 dövlət və 4 hökumət başçısı ilə qarşılıqlı münasibətlərə dair müzakirələr aparıb və konkret müsbət nəticələr əldə edib. İlham Əliyev həmin müddətdə 40-dan çox beynəlxalq təşkilat və şirkət rəhbərləri ilə görüşlər keçirib. Onların sırasında ilin əvvəlində Davos Forumunda Prezidentin iştirakı, seçkidə qələbədən dərhal sonra Türkiyə və Böyük Britaniyaya olduqca səmərəli səfərləri, İtaliya Prezidentinin tarixdə ilk dəfə Azərbaycana səfər etməsi və əhəmiyyətli müzakirələrin aparılması kimi vacib hadisələri ayrıca vurğulamaq olar.

Məlumdur ki, Azərbaycanın xarici siyasətində ölkənin ərazi bütövlüyünün bərpası prioritet istiqamətlərdəndir. Yeni inkişaf modelinin xarici siyasətlə bağlı hissəsində həmin problemin aktuallığı saxlanılıb. Azərbaycan rəhbərliyi qətiyyətlə milli dövlətçiliyi müdafiə edəcək və təcavüzkarın işğal etdiyi torpaqlarımızdan çıxarılması üçün fəallığını yeni səviyyəyə yüksəldəcək. Prezident İlham Əliyev bununla bağlı fikirlərini dəfələrlə ifadə edib. Dövlət başçısı Azərbaycanın kimsənin torpaqlarında gözünün olmadığını vurğulamaqla yanaşı, kimsəyə də Azərbaycan ərazisində başqa dövlət yaratmağa imkan verilməyəcəyini bəyan edib.

Bütün bunlar Azərbaycanın beynəlxalq miqyasda nüfuzunun daha da yüksəlməsinə təkan verir. Prezident İlham Əliyev öz müdrik, dərindən düşünülmüş siyasəti ilə müstəqil Azərbaycanı yeni zirvələrə doğru aparacaq. Azərbaycan xalqı öz Prezidentinin daim arxasındadır.

Dünya rəsmi Bakının səsinə indi daha diqqətlə qulaq asır. Azərbaycan dövlətinin regional və qlobal problemlərin həllində çəkisi getdikcə artır. Baş nazir Novruz Məmmədovun yuxarıda vurğulanan fikirləri bu kontekstdə ekspertlərin ciddi marağına səbəb olub. Şübhəsiz ki, Azərbaycan hökumətinin başçısı Prezidentin qarşıya qoyduğu vəzifələri bundan sonra da var gücü ilə yerinə yetirməyə çalışacaq.

**Newtimes.az**

# Ekspertlər Xəzər Sammitinə kölgə salmaq istəyənlərdən danışdılar

***Baş tutmuş Xəzər Sammiti və V Zirvə Görüşündən əvvəl və sonra xaricdəki anti-Azərbaycan qüvvələr və onlara havadarlıq edən erməni lobbisi sosial şəbəkələr, eləcə də, media qurumları vasitəsilə hər vəchlə bu tarixi məqama kölgə salmağa, qərəzli fikirlər yaymağa cəhdlər göstərdilər. Lakin onların bu kimi kirli addımları baş tutmamış qaldı və bununla yanaşı, sübuta yetirildi ki, Azərbaycan dövləti və rəhbərinin qətiyyətli iradəsi nəticəsində, o cümlədən, Xəzər dənizi hövzəsinə aid olan digər ölkələrin rəhbərlərinin sözügedən təşəbbüsü dəstəkləmələri bəlli bədxahların bu məsələyə müdaxilə etməsinə zəmin yaratmadı.***

Sözügedən məsələ ilə bağlı "Səs" qəzetinə açıqlama verən ekspertlər də bu fikirdədirlər ki, heç bir qaragüruh qüvvə öz məqsədlərinə, əvvəllər də nail ola bilməyib, bundan sonra da nail ola bilməyəcək.

**Təhmasib Novruzov: "Bu qüvvələr yaxşı anlayırlar ki, qonşuları ilə bərabərhüquqlu tərəfdaşlıq, dostluq münasibətlərinin güclənməsi onların imperialist istəklərinə ziddir"**

"Azadlıq Hərəkatçıları" İctimai Birli-



yinin sədri Təhmasib Novruzov açıqlamasında bildirib ki, Azərbaycanın yeraltı və yerüstü sərvətlərinin zənginliyi, eləcə də, coğrafi baxımdan mühüm geosiyasi məkanda yerləşməsi tarixlər boyu dünyanın güc mərkəzlərinin diqqətini cəlb edib: "Əsrlər boyu məmləkətimizin yadellilərin istilalarına məruz qalmasının səbəbi də, məhz bununla bağlıdır. Eramızdan əvvəl Makedoniyalı İskəndərdən başlamış ən son Çar Rusiyasına qədər güclü imperiyalar qədim türk diyarı olan bu məmləkəti nəzarətləri altında saxlamaq üçün bütün güclərini səfərbər ediblər. İndi dünya düzənində imperialist siyasətin yeni modeli formalaşmaqdadır. Beynəlxalq hüququn prinsipləri ölkələrin ərazi bütövlüyünün toxunulmazlığını özündə ehtiva etdiyindən tarixən mövcud olmuş imperialist-müstəmləkə siyasətini həyata keçirməyin mümkünsüzlüyü, güc mərkəzlərini yeni imperialist forma yaratmağa vadar edir. Bunun da ən səmərəli yolu kimi iqtisadi təsir rıçaqlarından istifadə etməyi məqbul hesab edirlər".

T.Novruzova görə, dünyada, xüsusən, Yaxın və Orta Şərqdə son onilliklərdə baş verənlər, məhz bu imperialist düşüncənin acı nəticələridir: "Heç şübhəsiz, yenicə müstəqilliyini əldə etmiş gənc, dünya xəritəsində kiçik bir ölkənin az zaman içərisində sürətli inkişafını bu qüvvələr həzm edə bilmirlər. Gerçək, müstəqil siyasi xətti ilə heç bir dövlətin vassalı olmağı qəbul etməyən Azərbaycanın sürətli inkişafı ilə yanaşı, bütün dövlətlərlə bərabərhüquqlu münasibətlər qurmaq siyasəti də bu qüvvələr tərəfindən qəbuledilməzdir. Onlar adət ediblər ki, kiçik dövlətləri öz təsirləri altına salsınlar, onun sərvətlərindən pay alsınlar, lazım gələndə də imperialist maraqlarına xidmət etməyə, iqtisadi, hərbi və digər baxımlardan güc mərkəzlərinin insani addımlarına dəstək versinlər".

Xəzəryanı ölkələrin Sammitinin keçirilməsi ilə bağlı dezinformasiyaların yayılmasına gəlincə, QHT rəhbəri bildirib ki, Xəzərin statusuna dair Konvensiyanın imzalanması kimi tarixi əhəmiyyətli hadisəni öz istəklərinə uyğun şərh etmələri, həmin güclərin pərdəarxası siyasətinin tərkib hissəsidir: "Bu qüvvələr yaxşı anlayırlar ki, qonşuları ilə bərabərhüquqlu tərəfdaşlıq və dostluq münasibətlərinin güclənməsi onların imperialist istəklərinə ziddir. Bu şəraitdə bütün vasitələrdən istifadə edirlər və yaxın gələcəkdə də çalışacaqlar ki, özlərinin regionla bağlı siyasətlərinə mane ola biləcək belə münasibətlərə xələl gətirsinlər, onu gözdən salsınlar. Azərbaycan hakimiyyətinin belə güc mərkəzlərinin maraqlarına deyil, xalqın, ölkə vətəndaşlarının maraqlarına xidmət edən xarici siyasətinin alternativi yoxdur. Bizə də düşən bu siyasətə dəstək vermək, həm ölkə xaricindən, həm də onların əlində silaha çevrilən daxilimizdəki bəzi qüvvələrdən olunan hər bir hücuma qarşı vətəndaş mövqeyi nümayiş etdirməkdir".

**İlqar Orucov: "Xəzər regionun geopolitik əhəmiyyəti bütün dünya tərəfindən, xüsusilə regionda marağı olan güclər tərəfindən izlənildiyi halda, hansısa qüvvələrin fikirləri mənasız görünür və bu fikirlərə ölkəmizdən olan "siyasətçi"lərin də dəstək ifadə etməsi lap gülüncdür"**

Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov isə sözügedən mövzu ilə bağlı deyib ki, Qazaxıstanın Aktau şəhərində Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmə-



nistan dövlət başçılarının iştirakı ilə Xəzərin statusunu müəyyənləşdirən Konvensiyanın imzalanması ilə yekunlaşan Sammitdə 22 illik müzakirələrə və bəzən də bunun yaratdığı mübahisələrə son qoyuldu: "5 Xəzəryanı dövlətin başçısının bir araya gəlməsi, artıq Xəzər Sammitinin əhəmiyyətinin göstəricisidir və bu görüşün əhəmiyyətliliyinə heç bir şübhə yeri qoymur. Xəzər dənizi sıradan bir su hövzəsi - göl və ya dəniz deyil. Burada artıq tədqiqatlarla təsdiqini tapmış milyardlarla barrel neft və trilyonlarla kubmetr karbohidrogen yataqlarına malik mənbələr mövcuddur və dəyəri trilyard dollarlarla ölçülür".

"Həmçinin, Xəzər dənizi nəqliyyat dəhlizidir"-deyə qeyd edən İ.Orucov əlavə edib ki, Xəzər dənizinin idarə edilməsi istiqamətində razılığın əldə edilməsi yeni əməkdaşlıq platformasının formalaşması deməkdir: "Xəzər dənizinin iqtisadi əhəmiyyəti ilə bərabər, onun sahilyanı dövlətlər üçün ekoloji əhəmiyyəti də xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda, Xəzərdə mövcud olan bioresursların qorunması, idarə və istifadə edilməsi vacib məqamlardandır ki, bunlarla bağlı da razılaşma təsdiqini tapmış oldu".

Qərəzli və məqsədli fikirlərlə gündəmə çıxmaq istəyən bədxahlara gəlincə, İ.Orucov bildirib ki, bütün bu iddialar boş və cəfəng, heç bir reallığa söykənməyən mənasız iddialardır: "Sammitin səmərəsiz olduğunu demək də boş fikirlərdir. Real nəticə ortadadır və 22 illik müzakirələrin yekunu olaraq Konvensiya imzalanıb. Konvensiyada ölkələrin əməkdaşlığına, təhlükəsizliyinə və iqtisadi maraqlarına hesablanmış konkret bəndlər əksini tapıb. Təsadüfi deyildir ki, Sammiti dünyanın müxtəlif ölkələrindən nə qədər jurnalistlər və ekspertlər izləyirdilər. Müzakirələrin obyekti olan Xəzər dənizinin bölgüsü, bütövlükdə, Xəzər regionun geopolitik əhəmiyyəti bütün dünya tərəfindən, xüsusilə, regionda marağı olan güclər tərəfindən izlənildiyi halda, hansısa qüvvələrin fikirləri mənasız görünür və bu fikirlərə ölkəmizdən olan "siyasətçi"lərin də dəstək ifadə etməsi lap gülüncdür. Azərbaycan Respublikası Prezidentinin iştirak etdiyi Xəzər Sammiti və 5-ci Zirvə Görüşü ölkəmizin həm siyasi, həm iqtisadi, həm də milli maraqlarına tam cavab verən, əvvəlcədən nəzərdə tutulmuş maraqların təmin olunduğu nəticələrlə yekunlaşdı. Bu hadisə ölkəmizə həm siyasi, həm iqtisadi dividendlər qazandıracaq, Xəzər sahili qonşu dövlətlərlə əməkdaşlığın güclənməsinə öz töhfəsini verəcək".

*Gülyanə AĞAKƏRİMOVA*

## Ukraynalı deputat: "Konvensiyanın imzalanması Xəzərdə təhlükəsizliyin təmini üçün atılan mühüm addımdır"

Aktauda Xəzəryanı ölkələrin dövlət başçılarının Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanı imzalaması sözsüz ki, çox əhəmiyyətli hadisədir və Xəzərdə təhlükəsizliyin təmini üçün atılan mühüm addımdır. Bu fikri AZƏRTAC-a məxsusi açıqlamasında Ukrayna Ali Radasının deputatı Oleq Medunitsa söyləyib. Deputat bildirib ki, bu Konvensiya Xəzəryanı ölkələrin Xəzər dənizində birgə layihələr həyata keçirmələri üçün yeni imkanlar açacaq. "Bununla da Xəzəryanı ölkələr öz milli maraqları ilə yanaşı, təhlükəsizliklərini də təmin edə bilərlər",- deyə Oleq Medunitsa vurğulayıb.

# Azərbaycanın Daxili İşlər Nazirliyi Türkiyənin müvafiq qurumları ilə əməkdaşlığa böyük önəm verir

***Daxili işlər naziri, general-polkovnik Ramil Usubovun dəvəti ilə Türkiyə Respublikası Jandarm Qüvvələrinin Baş Komandanı, ordu generalı Arif Çetinin başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfərə gəlib.***

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Arif Çetin və onu müşayiət edən şəxslər Fəxri xiyabana gedərək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarı önünə əklil qoyub, Ulu Öndərin əziz xatirəsini ehtiramla yad ediblər. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə tər çiçəklər düzülüb. Daha sonra qardaş ölkənin təmsilçiləri Şəhidlər xiyabanındakı "Əbədi məşəl" kompleksini və türk şəhidliyini ziyarət ediblər. Avqustun 14-də daxili işlər naziri, general-polkovnik Ramil Usubov ordu generalı Arif Çetinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Qonaqları salamlayan nazir dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın Türkiyə ilə əlaqələrinin hər zaman yüksələn xətlə inkişaf etdiyini, ulu öndər Heydər Əliyevin bu sahədəki xidmətlərini, onun "Bir millət, iki dövlət" siyasətinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini, dövlət başçılarının siyasi iradəsi və qarşılıqlı səfərləri nəticəsində dost və qardaş ölkələrimiz arasındakı münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu məmnunluqla xatırladıb. Nazir rəhbərlik etdiyi qurumun Türkiyənin Daxili İşlər Nazirliyi, o cümlədən Jandarm Komandanlığı ilə əməkdaşlığın genişləndirilməsinə böyük önəm verdiyini, Daxili Qoşunların formalaşmasında, ən müasir tələblərə cavab verən quruma çevrilməsində, şəxsi heyətin peşəkarlığının daha da yüksəldilməsində Türkiyə Jandarm Komandanlığının böyük xidməti olduğunu xüsusi vurğulayaraq buna görə təşəkkürünü bildirib.

Sonra qonağa müstəqilliyin ilk illərində respublikamızın qarşılaşdığı problemlər, Ermənistanın silahlı qüvvələri tərəfindən torpaqlarımızın işğalı, bir milyondan çox soydaşımızın doğma yurdlarından qaçqın düşməsi, ölkəmizdə cərəyan edən gərgin ictimai-siyasi proseslər barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, ulu öndər Heydər Əliyevin ali hakimiyyətə tarixi qayıdışından sonra onun rəhbərliyi ilə cəmiyyət həyatının bütün sahələrində, o cümlədən cinayətkarlıqla mübarizə, ictimai təhlükəsizliyin təmini sahəsində həyata keçirilən qətiyyətli tədbirlər nəticəsində Azərbaycanda kriminogen durum tam nəzarətə götürülüb. Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkəmizin son illərdəki sürətli inkişafını şərtləndirən əsas amillərdən olan dönməz ictimai-siyasi sabitlik təmin olunub, əmin-amanlıq yaradılıb. Nazir Türkiyə Jandarm Qüvvələri Baş Komandanının ölkəmizə səfərinin əlaqələrimizin inkişafına və daha da dərinləşməsinə müsbət təsir göstərəcəyinə əminliyini ifadə edib.

Səmimi görüşə və ətraflı məlumata görə minnətdarlığını bildirən ordu generalı Arif Çetin Azərbaycana səfərindən, Bakının dünyanın ən gözəl paytaxtlarından, ən təhlükəsiz şəhərlərindən biri olmasından, ölkəmizin dinamik, sürətli inkişafından, eyni zamanda, Daxili Qoşunların yüksək peşəkarlığa və döyüş qabiliyyətinə malik mobil quruma çevrilməsindən məmnun olduğunu bildirib. O, iki ölkənin müvafiq orqanları arasındakı faydalı işbirliyini yüksək qiymətləndirib, "Bir millət, iki dövlət" olaraq Türkiyənin hər zaman Azərbaycanın yanında yer aldığını, onun ordusunun, Daxili Qoşunlarının inkişafı üçün bundan sonra da səylərini əsirgəməyəcəklərini, belə əməkdaşlığın, təcrübə mübadiləsinin qardaş xalqlarımızın və ölkələrimizin mənafelərinə xidmət etdiyini vurğulayıb.

Türkiyə Respublikasının ölkəmizdəki səfirinin birinci müavini Volkan Öskiperin də iştirak etdiyi görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər ətrafında müzakirələr aparılıb.

# Azərbaycanın turizm potensialı dünyada tanınır



***Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsinə yönələn strategiyanın mühüm istiqamətlərindən biri də turizmin inkişafıdır. Bu, dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən iqtisadi islahatların nəticəsidir. Bu gün Azərbaycan dünyada təhlükəsiz və sabit ölkə kimi tanınır. Ölkəmizdə turizm sahəsinin inkişafı üçün qanunvericilik bazasının təkmilləşdirilməsi məqsədilə "Turizm haqqında" yeni qanun layihəsi, həmçinin, "2016-2025-ci illər üçün Azərbaycanda turizmin inkişaf strategiyası" hazırlanıb.***

Paytaxt Bakı daxil olmaqla, ölkəmizin əksər regionlarında turizmin müxtəlif növlərini, o cümlədən, biznes, istirahət, sağlamlıq, idman turizmini inkişaf etdirmək üçün hər cür imkanlar yaradılıb. Respublikamızda turizmin perspektiv inkişaf strategiyasında ölkənin bütün regionlarının bu sahədəki potensialından səmərəli şəkildə istifadə etmək nəzərdə tutulub. Ölkəmizdə bu sahənin inkişafı ilə bağlı görülən işlər daha çox turistin səfərinə geniş imkanlar açıb. Ötən illərlə müqayisədə ölkəmizə gələn turistlərin sayında artımın müşahidə olunması bu sahəyə ayrılan diqqətin göstəricisidir. Belə ki, 2017-ci ildə turizm sahəsində böyük dəyişikliklər və irəliləyişlərə nəzər salsaq, görərik ki, ötən il ölkəyə gələn turistlərin sayında 20-25 faiz artım müşahidə olundu. 2016-cı illə müqayisədə, 2017-ci ildə ölkəmizə gələn xarici vətəndaşların sayı 449 215 (20%) nəfər artaraq, 2 691 998 nəfər oldu. Bu da, müşahidə edilmiş ən yüksək göstərici idi. İlk dəfə olaraq, paytaxtımızda 2017-ci ildə yaz və payız aylarında Bakı Şopinq Festivalı keçirildi. Bundan başqa, ölkəmiz İslam Həmrəyliyi Oyunları və digər beynəlxalq tədbirlərə ev sahibliyi etdi. Bu tədbirlər ölkəyə gələn turistlərin sayında ciddi dəyişikliyə səbəb oldu. Bölgələrdə - Şəkidə, Göyçayda və Qəbələdə müxtəlif festivallar təşkil olundu. Eyni zamanda, ölkəmizdə turizmin müxtəlif növləri- qış turizmi, sağlamlıq turizmi və digərləri bu qədər turistlərin ölkəmizə səfərinə səbəb olur. Bu sahə üzrə təhsil ocaqlarında peşəkar kadrların hazırladığını vurğulamaq da yerinə düşər. Dövlətin diqqəti və qayğısı sayəsində 2006-cı ildən Azərbaycan Turizm və Menecment Universiteti fəaliyyət göstərir. Bir sıra ali təhsil ocaqlarının müvafiq fakültələrində turizm kafedraları var. Bakı şəhərində Turizm Peşə Məktəbi, Qəbələ və İsmayıllı şəhərlərində Turizm Peşə Məktəbi və Liseyi, Mingəçevir şəhərində Turizm Kolleci fəaliyyət göstərir. Ölkəmizə daha çox turist cəlb etmək üçün sadələşdirilmiş viza proseduru həyata keçirilir, yeni və müasir otellər fəaliyyət göstərir. Bütün bu və ya digər tədbirlər ötən illərlə müqayisədə nəzərə çarpacaq irəliləyişlərin sezilməsinə zəmin yaradır.







Onu da bildirək ki, artıq ölkəmizdə qatar turizminin inkişafı üçün şərait yaradılıb. Bakı-Tbilisi-Qars Dəmir Yolunun açılışı turizmin də inkişafına təkan verəcək. Ekspertlərin qənaətinə görə, qatar turizminin inkişafı Böyük İpək Yolunun inkişafında yeni mərhələ olacaq. Yaxın gələcəkdə dəniz turizmi də inkişaf edəcək və kruizlər fəaliyyətə başlayacaq. Xəzər dənizinin potensialından maksimum istifadə imkanları var. Ölkədəki siyasi sabitlik, qonaqpərvərlik, əlverişli iqlim şəraiti və coğrafi mövqe bunun üçün uyğundur. Azərbaycan Qərb və Şərqi birləşdirən körpü rolunu oynayır. Artıq Azərbaycan bütün dünyada öz turizm potensialı ilə tanınır. Təkcə paytaxt Bakı deyil, həmçinin, Şəki, Qəbələ və digər şəhərlərdə də turizm inkişaf edir. Bu ilin 6 ayında Azərbaycana üz tutan xarici turistlərin sayının 1 milyon 323 min 303 nəfər olması turizm sənayesinin inkişafından xəbər verir. Ölkəmizə ən çox turist axını Rusiyadan, Gürcüstandan, İrandan və Türkiyədən olub. Həmçinin, BƏƏ, Ukrayna, İraq, Qazaxıstan, Küveyt, Birləşmiş Krallıq, İsrail, Hindistan, Pakistan, Türkmənistan, Qətər və başqa ölkələrdən ölkəmizə səfər edən turistlərin sayında artım müşahidə edilib. Bütün bunlar ölkəmizdə turizm sahəsinə ayrılan diqqətin, həyata keçirilən dövlət proqramlarının və bu sahə üzrə reallaşan islahatların məntiqi nəticəsidir.

*Nəzakət ƏLƏDDİNQIZI*



# Hökumət tikinti ilə bağlı qaydalara dəyişiklik etdi

***Nazirlər Kabinetinin "Mühəndis-axtarış işlərinin yerinə yetirilməsi Qaydaları"nda dəyişiklik edilib. SİA-nın məlumatına görə, qaydaların indiyədək olan variantına əsasən, mühəndis-axtarış işlərinin nəticələrinə əsasən tikinti zamanı bitişik və qonşu obyektlərin texniki vəziyyətinə daimi müşahidə ilə bağlı tədbirlər tikinti layihəsində nəzərdə tutulmalıdır. Deformasiya (zədələnmə) aşkar edildikdə, podratçı tikinti işlərini dərhal dayandıraraq, bu barədə sifarişçiyə, layihəçiyə, Fövqəladə Hallar Nazirliyinə, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə və yerli icra hakimiyyəti orqanlarına məlumat verməlidir.***

Yeni dəyişikliyə əsasən isə deformasiya (zədələnmə) aşkar edildikdə, podratçı tikinti işlərini dərhal dayandıraraq, bu barədə sifarişçiyə, layihəçiyə, Fövqəladə Hallar Nazirliyinə, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə və yerli icra hakimiyyəti orqanlarına, tikinti işləri Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamına verilmiş torpaq sahəsində aparıldığı hallarda isə həmçinin həmin Agentliyə məlumat verməlidir.

"Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişikliklər edilməsi haqqında" qanunun tətbiqi ilə əlaqədar "Balıqçılıq təsərrüfatı ekspertizasının aparılması Qaydası"na da dəyişiklik edilib. Bu qaydaların indiyədək olan variantına görə, balıqçılıq su obyektlərinin vəziyyətinə təsir edə bilən müəssisələrin, qurğuların və digər obyektlərin tikintisi və yenidən qurulması layihələrinin Qanuna və ekoloji tələblərə uyğunluğuna dair Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəyi Şəhərsalma və Tikinti Məcəlləsinin 75.4-cü maddəsinə görə tikintiyə icazə verən orqanların sorğusu əsasında verilir. Yeni dəyişikliklə isə bu cümlədəki "orqanların" sözü "orqanın (qurumun)" sözləri ilə əvəz edilib.

*Nailə Məhərrəmova*

## TANAP-ın Türkiyədəki layihələrə ayırdığı qrant 140 milyon lirəyə çatacaq



***Trans-Anadolu (TANAP) təbii qaz boru kəməri layihəsi üzrə Türkiyədə 860 layihəyə ayrılan qrant ümumilikdə 140 milyon türk lirəsinə çatacaq.***

AZƏRTAC Anadolu agentliyinə istinadla xəbər verir ki, bu barədə TANAP-ın baş direktoru Saltuk Düzyol deyib. O bildirib ki, TANAP-ın sosial və ekoloji sərmayə proqramları vasitəsilə layihələr davamlı dəstəklənir: "Bunun sayəsində Türkiyənin bölgələrindəki vətəndaşların iqtisadi və sosial inkişafına töhfə verilir. TANAP 11 vilayəti əhatə edən birinci qrant çərçivəsində 429 layihəyə 70 milyon türk lirəsindən çox vəsait ayrılıb. İkinci qrant üçün isə 4 min layihə üzrə müraciət olub. Həmin layihələrdən 431-i seçilib və bu layihələrə təxminən 70 milyon türk lirəsi vəsait ayrılıb. Beləliklə, TANAP-ın Türkiyədə 20 vilayəti əhatə edən 860 layihəyə ayırdığı qrant ümumilikdə 140 milyon lirəyə çatacaq".

# Dünya nizamı: liberalizmin iflası, yoxsa idarəolunan xaos?



***Bir çox ekspertlər, dünyanın aparıcı siyasi təhlil mərkəzləri müasir dünya düzənini xarakterizə etməyə çalışırlar. Onların qiymətləndirmələri bir sıra hallarda kəskin fərqlənir. Bəzən bir-biri ilə dabandabana zidd proqnozlar verilir. Bu cür vəziyyət hər şeydən öncə ona dəlalət edir ki, hazırkı dönəmdə qlobal dünya düzəni haqqında konkret mövqe yoxdur. Onun kökü isə dünyanın qarışıq və ziddiyyətli geosiyasi situasiyada olmasındadır. Mütəxəssislər bu kimi ziddiyyətlər kontekstində müasir dünyanın geosiyasi nizamını xarakterizə etməyə cəhd göstərirlər. O cümlədən geosiyasi termin kimi dəbdə olan "liberal dünya nizamı"nın özəllikləri haqqında fikir yürüdülür. Ümumiyyətlə götürdükdə, problemin bu aspekti asan izah edilən deyil. Onun üzərində daha geniş kontekstdə dayanmaq zərurəti vardır.***

## Real geosiyasi proseslər: **təkamül istiqamətləri**

Ekspertlərin dünya nizamı haqqında fərqli fikirlərdə olduğu çoxdan bəllidir. Müasir qlobal geosiyasi proseslərin ziddiyyətləri fonunda bu, normal hal kimi görünür. Bütövlükdə dünya sistemi riskli və mütəhərrik faktorlardan asılı vəziyyətdədir. Dünyada qəti söz sahibi olan dövlət isə yoxdur. Meydanda bir neçə güclü oyunçu vardır və hər biri öz maraqlarını diqtə etməkdən çəkinmir. Təəssüf ki, bir sıra analitiklər bu reallığı gizlətməyə çalışsalar da, ondan qaçış mümkün deyildir.

Əlbəttə, kimlərinsə simpatiyası olduğu və ya birbaşa maraqlarına xidmət etdiyi hansısa supergücü dünya lideri kimi təqdim etmək istəyi ola bilər. Məsələn, Amerikanı bu statusda görmək istəyənlər az deyil. Eyni qayda ilə Çin və ya Rusiyanın liderliyindən və ya ən azından sürətlə artan nüfuzundan bəhs edirlər. Onları da başa düşmək olar. Ancaq bütün bu tərəfkeşlikdən kənarda dayanıb, çağdaş ziddiyyətli və mürəkkəb dünyanın geosiyasi mənzərəsinə nəzər salsaq, orada hansı düzəni görə bilərik? Və ya, ümumiyyətlə, belə bir düzən mövcuddurmu?

Ədalət naminə deyək ki, dünyanın bir çox analitikləri və diplomatiya sahəsində təcrübəsi olan mütəxəssisləri ənənəvi baxışlardan fərqli olaraq, dünya nizamı haqqında elə də nikbin fikir söyləmir, hətta Qərb siyasi və analitik leksikonunda dəbdə olan "liberal dünya nizamı" ifadəsinin reallığa nə dərəcədə uyğun olub-olmaması məsələsini də qaldırırlar (bax: məs., Graham Allison. The Myth of the Liberal Order. From Historical Accident to Conventional Wisdom / Foreign Affairs, № 4, 2018).

Öncə vurğulayaq ki, "dünyanın liberal düzəni" dedikdə, İkinci dünya müharibəsindən sonra ABŞ-ın liderliyi ilə bir neçə dövlətin yaratdığı nizam nəzərdə tutulur. Onlar iki dünya müharibəsinə gətirib çıxaran səbəblərin aradan qaldırıldığına əmin olmaq istəyirdilər. Özlərini demokratik hesab edən ölkələr hüququn aliliyinə, suverenliyə hörmətə və ərazi bütövlüyünün təmininə əsaslanan beynəlxalq liberal sistem yaratdılar. İnsan haqları müdafiə olunmalı olan dəyər kimi qəbul edildi.

Sözdə gözəl səslənən bu qaydalara əməl edildimi? Həmin prinsiplərin qəbulundan 70 il sonra dünyada real geosiyasi vəziyyəti necə xarakterizə etmək olar? Qərb analitik fikrində bu məsələyə münasibətdə iki mövqe vardır. Birincisi, hesab edirlər ki, liberal dünya nizamı müəyyən müddətə işləyib və yalnız son 20 ildə vəziyyət kəskin dəyişib. Bu bağlılıqda Riçard Haas yazır ki, dünya artıq "qeyri-liberal, qeyri-dünyəvi və qeyri-nizamlı olub" (bax: Richard N. Haass. Liberal World Order, R.I.P. / Project Syndicate, 21 mart 2018).

Bunun nəticəsində indi dünya haqqında bir tam kimi danışmaq getdikcə daha da çətinləşir. Bu gün əsas olaraq "yeni regional nizamlılıq və ya nizamsızlıq"lar meydana gəlir (bax: əvvəlki mənbəyə). Daha maraqlısı odur ki, bu cür mövqenin tərəfdarları liberal dünya nizamının laxlamasını Amerikanın dünyaya münasibətinin dəyişməsində görürlər. Yəni öncə qəbul edilir ki, liberal nizam işləyib, sonra iddia edilir ki, burada əsas günahkar ABŞ-dır, çünki o, artıq qlobal geosiyasi nizamın qarantı olmaq istəmir.

İkinci mövqeyə görə isə sözün həqiqi mənasında heç zaman dünya nizamı liberal olmayıb. Kağız üzərində liberal dəyərlərə və prinsiplərə uyğun müddəalar yer alsa da, onlar həyata keçirilməyib. Mütəxəssislərin indi ağızdolusu danışdıqları dünyada qlobal miqyasda sabitliyin mövcudluğu isə ABŞ-la SSRİ arasında qüvvələr balansının hesabına olub (bax: Graham Allison. Göstərilən məqaləsi). Yəni qlobal sabitlik hansısa sistemli liberal qarşılıqlı münasibətlərin məntiqi nəticəsi deyil, supergüclərin (ABŞ və SSRİ-nin) münasibətlərinin "yan effekti" (G.Allison) qismində özünü göstərib.

## Güclü Çin və güclü Tramp: **"müxtəlifliyin təhlükəsizliyi"nə əsas təhlükə**

Bu tezisin təsdiqi kimi Con Kennedinin bir fikrini misal gətirmək olar. ABŞ-ın keçmiş Prezidenti ifadə etmişdi ki, həm liberal, həm də qeyri-liberal rejimlərin "müxtəlifliyinin təhlükəsizliyi" kimi dünya nizamını dəstəkləmək kifayətdir. Bu o deməkdir ki, C.Kennedi mövcud şərtlər daxilində dünyada vahid liberal münasibətlər sistemini qurmağın imkansızlığını dərk edirdi. Bu səbəbdən fərqli rejimlərin mövcudluğunun təhlükəsizliyinə dayanan tənzimləmə sistemini saxlamaq daha real və səmərəli olar.

Bu kontekstdə Donald Trampın müasir dünya siyasətində rolu ilə bağlı hətta tanınmış analitiklərin söylədiklərinin doğru olmasına şübhə yaranır. Məsələn, Cozef Nay yazır ki, "Məni Çinin daha güclü olması narahat etmir. Məni Trampın güclənməsi narahat edir" (bax: əvvəlki mənbəyə). Doğrudan da, maraqlı fikirdir, lakin onun cazibəliliyi ilə reallığı əks etdirməsi bir-birinə uyğundurmu? Əgər indiyə qədər həqiqi mənada liberal dünya nizamı olmayıbsa, D.Tramp nəyə təhlükə yaradır? Məsələnin bu tərəfi ikinci mövqe baxımından aydın deyil.

Əslində, son 30 ildə dünyanın müxtəlif regionlarında baş verən geosiyasi proseslərə nəzərə salsaq, ikinci mövqe tərəfdarlarına haqq qazandıra bilərik. Belə ki, keçən müddətdə ABŞ istənilən ölkəyə (məsələn, Əfqanıstana, İraqa, Liviyaya, Suriyaya, Balkanlara və s.) hətta BMT-nin icazəsi olmadan belə istədiyi miqdarda hərbi qüvvə göndərə və orada müharibə meydana çıxara bildiyini nümayiş etdirdi.

Vaşinqtonun bu addımları heç də liberal dəyərlərə uyğun olmayıb, əksinə, ölkələrin daxili işlərinə qarışılıb, insan haqları (o, bu işdə tək deyil, başqa supergüclər də eyni davranıblar) və dövlətlərin ərazi bütövlüyü kobud surətdə pozulub. Hətta müsəlman ölkələrində məzhəb savaşını alovlandıran addımlar da atılıb. Odur ki, Əfqanıstan, İraq, Suriya və Liviyada müharibənin sonu görünmür. Budurmu liberal dünya nizamı?!

Cənubi Qafqaza baxdıqda da eyni mənzərəni görürük. Burada Azərbaycan və Gürcüstanın ərazi bütövlüyü pozulub. Ermənistan kimi əlaltı-kvazidövlət havadarlarının (birbaşa özünü liberal və demokratik adlandıran böyük dövlətlərin) aktiv iştirakı ilə özündən qat-qat güclü olan müsəlman Azərbaycanın torpaqlarının 20 faizini işğal edib və hələ də əlində saxlayır. Liberal dünya nizamının üç prinsipindən biri ölkələrin ərazi bütövlüyünün təminidir. Bəs onda Azərbaycana münasibətdə bu prinsip niyə təmin edilmir? Əksinə, "Azadlığa dəstək Aktına" ədalətsiz "907-ci düzəliş"lə Azərbaycana qarşı məhdudiyyətlər tətbiq olunur. Budurmu liberal dünya nizamı?!

Dünya siyasətindəki real vəziyyəti hind strateqi Si Raca Mohan lakonik ifadə edib. Onun qiymətləndirməsinə görə, supergüclər "istisnadırlar". Çünki hansısa davranış onların xeyrinədirsə, onun beynəlxalq hüquqa uyğun olub-olmaması arxa plana keçir və həmin güclər həmin addımı atırlar. Yəni böyük güclər özlərini "istisna faktor" kimi görürlər. Təbii ki, belə yanaşma davam etdikcə, liberal dünya nizamından bəhs etmək mümkün deyil.

Bu kimi məqamların işığında müasir dünya nizamının bir xaos və qeyri-müəyyənlik içərisində olduğu qənaətinə gələ bilərik. Vladimir Putinin ifadə etdiyi kimi, o, daha çox "idarəedilən xaotik mühiti" xatırladır. Bu oyunda sifarişçilər də, hədəflər də bəllidir. Dünyanın belə vəziyyətdə hansı nizamlı struktura transformasiya edəcəyi aydın deyil. Bütün hallarda indiki qlobal geosiyasi nizamı liberal adlandırmaq çox çətindir.

***Newtimes.az***

# Koçaryanın azadlığında Kremlin izi

## *Yaxud Qarabağ klanı da Paşinyan üzərində qələbə qazandı*

***Robert Koçaryanın məhkəmə zalından azadlığa buraxılması Ermənistanın yeni "siyasi lideri" Nikol Paşinyanın ətrafında ciddi şübhələr doğurmağa başlayıb. Artıq bir sıra erməni ekspertləri, eləcə də, mediası iddia edir ki, Paşinyan Kremlin və Qarabağ klanının davamlı basqılarına davam gətirə bilmədiyinə görə, Koçaryanın azadlığa buraxılması üçün gizli göstəriş verib.***



Maraqlısı da budur ki, eks-prezidentin azadlığa buraxılması onun toxunulmazlığı ilə əlaqələndirilib və 1 mart hadisələri zamanı guya onun insanların qətlə yetirilməsi barədə xəbərsiz olduğu bildirilib. Ermənistanın ikinci prezidentinin vəkili Ruben Saakyan da mətbuata açıqlamasında deyib ki, Koçaryan, ümumiyyətlə, məsuliyyətə cəlb oluna bilməz. Əlbəttə, absurd və gülünc alibiləri ilə ictimai rəyi aldatmağa çalışan Paşinyan hakimiyyəti bu vasitə ilə, özünü, necə deyərlər, təmizə çıxarmağa cəhd edir.

### Koçaryanın azadlığa buraxılması üçün müraciət ünvanlananda, artıq bəlli olmuşdu ki, Qarabağ klanı hərəkətə keçib

Eyni zamanda, suallar yaranmağa başlayır ki, əgər Robert Koçaryanın toxunulmazlığı bəlli idisə, onun həbsi və həbsi ətrafında oynanılan oyunbazlıqlara nə ad vermək olar? Söz yox ki, bir müddət əvvəl, separatçı "DQR" rejiminin "parlament" təmsilçiləri Ermənistan hakimiyyətinə Koçaryanın azadlığa buraxılması üçün müraciət ünvanlananda, artıq bəlli olmuşdu ki, Qarabağ klanı hərəkətə keçib. Düzdür, Ermənistanın baş prokurorluğu istər qarabağlı ermənilərin, istərsə də Respublika və Daşnaksyutun partiyalarının müraciətlərini rədd etdi, ancaq son anda Koçaryanla bağlı qərarın dəyişdirilməsi və onun azadlığa buraxılmasının arxasında Rusiyanın dayanması kimsədə şübhə doğurmur. Məhz bu baxımdan, hətta Nikol Paşinyanın tərəfdarları belə, həmin qərardan sonra ona olan ümidlərini itirməyə başlayıblar. Bir sözlə, Paşinyan hələ 3-4 ay öncə, qazandığı etimadını, eləcə də, reytinqini yavaş-yavaş itirməyə başlayır. Bu reallığın arxasında dayanan ən mühüm faktor isə onun "məxməri inqilab"dan başlayaraq, hazırkı dövrə qədər anti-Rusiya xarakterli siyasət aparmasıdır.

### Mikael Arutunyanı həbs edə bilmirlər, Yuri Xaçaturov da yaxşı bilirdi ki, bütün hallarda Kreml onu müdafiə edəcək

Bu arada, Ermənistanın "Hraparak" qəzeti öz etibarlı mənbələrinə istinadən yazır ki, erməni hüquq-mühafizə orqanlarına 1 mart hadisələrinin hakimiyyət tərəfdən olan, bilavasitə iştirakçısı, sabiq müdafiə naziri Mikael Arutunyanın yeri məlum olsa da, onu həbs edə bilmirlər. Belə ki, o, Rusiya vətəndaşıdır və ehtimallar var ki, Moskva onu ələ verməyəcək.

Adıçəkilən qəzet, onu da qeyd edir ki, hazırda KTMT-nın baş katibi Yuri Xaçaturovla da bənzər hal yaşanmışdı. O, Yerevanda həbs edilsə də, sonradan ödənilən pul müqabilində zaminə buraxıldı. Bunun ardınca isə, Kreml Xaçaturovun arxasında dayanaraq, onun həbs məsələsinin birdəfəlik gündəmdən çıxmasına nail oldu. Çünki Xaçaturov da Rusiya vətəndaşıdır və əgər belə olmasa idi, Ermənistana gedib, istintaq orqanlarına ifadə verməzdi. O, yaxşı bilirdi ki, bütün hallarda Kreml onu müdafiə edəcək.

### Levon Ter-Petrosyan niyə susur?

Beləliklə, məsələ tam olaraq aydındır və bu hadisələr fonunda erməni ictimaiyyətini digər bir sual da maraqlandırır. Misal üçün, digər erməni media qurumu olan "Joxovurd" yazır ki, Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyan, nədənsə, indiyədək baş verənlərə, 1 mart hadisələri ilə bağlı qaldırılan cinayət işlərinə və Koçaryanın həbsinə dair mövqeyini bildirməyib: "Halbuki indi hər kəs Ter-Petrosyanın bəyanatını gözləyir, ən azı, o səbəbdən ki, 1 mart hadisələri, məhz ona qarşı yönəlmişdi".

Qeyd edək ki, Robert Koçaryan həbs olunmamışdan qabaq "saatın əqrəblərini" Ter-Petrosyana tərəf döndərərək, məhz onun ordunu siyasi proseslərə cəlb etdiyini bildirmişdi. Adıçəkilən qəzet bu məsələlərlə bağlı Levon Ter-Petrosyanın mətbuat katibi Arman Musinyana sual ünvanlayıb və soruşub ki, nəyə görə birinci prezident hazırkı vaxta qədər susur, yaxud hər hansı bəyanat səsləndirmir? "Ter-Petrosyan nə zaman lazımdırsa, o zaman da danışır, o, heç vaxt susmayıb"-deyə cavab verən mətbuat katibi, həmçinin, bildirib ki, Ermənistanın Milli Konqresi sözügedən məsələlər barədə dəfələrlə münasibət bildirib və konstitusiya quruluşuna qarşı çevriliş edildiyini deyib. "Ter-Petrosyan lazım olan məqamda mütləq bu barədə danışacaq" Musinyan deyib.

### Ermənistan vətəndaş müharibəsinə doğru irəliləyir

Nəticədə isə, belə qənaətə gəlmək olar ki, Ermənistanda davam edən siyasi böhran dərinləşdikcə, ortaya çıxan maraqdoğurucu məqam Kremlin təsiri və Qarabağ klanının yenidən baş qaldırmasıdır. Hər halda, bu iki tərəfin bir-biri ilə əlaqəsinin olması da şübhəsizdir. Əgər Ermənistanın yeni hakimiyyəti öz siyasi baxışlarını dəyişməzsə, bu böhran davam edə, hətta vətəndaş müharibəsinə qədər gedib çıxa bilər. Əbəs deyil ki, bu məsələlər ətrafında çıxış edən bir sıra erməni ekspertləri baş nazir Nikol Paşinyanın əldən tez tərpənərək, digər cinayətkar - Ermənistanın 3-cü prezidenti Serj Sarkisyanın həbs olunmasının vacibliyini bildirirdilər. Onların fikrincə, əgər Serj Sarkisyan həbs olunmasa, gec olacaq və Koçaryanın azadlığa çıxması ilə hər şey əks-inqilabi çevrilişə doğru gedəcək. Bu baxımdan, cərəyan edən son proseslər də, məhz bu reallığı açıq-aydın göstərməkdədir.

***Rövşən NURƏDDİNOĞLU***

# "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzləri işə daha erkən başlayacaq



Çoxsaylı müraciətləri və aparılan statistik təhlilləri nəzərə alaraq vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə 20 avqust 2018-ci il tarixindən "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərində xidmət daha erkən başlayacaq. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən AZƏRTAC-a bildiriblər ki, müvafiq tarixdən "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzləri həftənin bazar ertəsi - cümə günləri saat 09:00-dan 19:00-dək, şənbə və bazar günləri isə 09:00-dan 17:00-dək fəaliyyət göstərəcək. Yalnız "ASAN Kommunal" mərkəzlərində bazar günü qeyri-iş günüdür.

Eyni zamanda 108 Çağrı mərkəzinin iş rejimində də dəyişiklik ediləcək. Mərkəz bazar ertəsi - cümə günləri saat 09:00-dan 18:00-dək, şənbə günü isə saat 09:00-dan 13:00-dək fəaliyyət göstərəcək.

"ASAN xidmət" mərkəzləri Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli 685 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində yaradılıb. Hazırda 13 "ASAN xidmət" və 2 "ASAN Kommunal" mərkəzi fəaliyyət göstərir. Bu günə kimi mərkəzlərdə göstərilən xidmətlərin keyfiyyətinin ölçülməsi məqsədilə mütəmadi rəy sorğuları keçirilir, Dövlət Agentliyinə daxil olan müraciətlərə baxılaraq təhlillər aparılır, vətəndaş məmnunluğunun təmin edilməsi üçün müvafiq tədbirlər görülür.

## Beş yol qəzasında üç nəfər ölüb, üç nəfər xəsarət alıb



Respublikanın daxili işlər orqanları tərəfindən ötən gün qeydə alınmış 103 cinayət faktından 18-nin üstü "isti izlər"lə açılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlki dövrlərdən bağlı qalmış 11 cinayətin açılması təmin olunub.

Axtarışda olduğuna görə, ümumilikdə 29 nəfər, o cümlədən mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə 1 nəfər, borclu şəxs qismində axtarışda olan 14 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib. Respublikanın avtomobil yollarında baş vermiş beş yol-nəqliyyat hadisəsi nəticəsində üç nəfər ölüb, üç nəfər xəsarət alıb. Daxili işlər orqanları əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklə əlaqəli yeddi fakt müəyyənləşdirilib. Cinayət törətməkdə şübhəli bilinən 27 nəfər saxlanılıb.

## Gürcüstanda keçiriləcək prezident seçkilərinə 42 milyon lari xərclənəcək



Bu ilin oktyabrında Gürcüstanda keçiriləcək prezident seçkilərinə dövlət büdcəsindən təxminən 42 milyon lari (təqribən 16,5 milyon dollar) ayrılıb. AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə Gürcüstan Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Tamar Jvaniya məlumat verib. MSK sədrinin sözlərinə görə, bu vəsaitin 1,2 milyon larisi seçkilərlə bağlı treninqlərin təşkilinə, 9 milyonu prezidentliyə namizədlərin və onların səlahiyyətli nümayəndələrinin televiziya vasitəsilə təbliğatına sərf olunacaq. T.Jvaniya bildirib ki, əvvəllər prezident seçkiləri üçün 39 milyon lari ayrılması planlaşdırılırdı. Bu məbləğ seçki marafonunun seçkilərə 60 gün qalmış elan olunduğu vaxta görə nəzərdə tutulmuşdu. Amma seçki marafonu daha tez elan edildi və bu da əlavə xərclərin yaranmasına səbəb olub. Bununla belə T.Jvaniya seçkilər üçün nəzərdə tutulmuş vəsaitin artırılacağını da istisna etməyib.

## Bir həftədə Ukraynada 240-a yaxın uşaq itkin düşüb



Ötən həftə ərzində Ukraynada 239 uşaq itib. AZƏRTAC xəbər verir ki, bu barədə Ukrayna Milli Polisinin mətbuat xidməti məlumat yayıb. Məlumata görə, polis bunlardan 233 nəfərini taparaq evlərinə qaytara bilib. Digər 6 uşağın axtarışları isə davam edir. Polis itkin düşən uşaqların axtarışı üçün gücləndirilmiş iş rejiminə keçib.

## Bu yay Yaponiyada isti hava səbəbindən 144 nəfər həlak olub



Yaponiyada isti hava səbəbindən aprel ayının 30-dan bu günədək 144 nəfər həlak olub, 70 mindən çoxu xəstəxanalara yerləşdirilib. AZƏRTAC xəbər verir ki, bu barədə Yaponiya Yanğınsöndürmə İdarəsi məlumat yayıb.

Məlumatda qeyd edilir ki, avqustun 6-dan 13-dək 6 nəfər günvurma səbəbindən ölüb, 7079 nəfər isə həmin diaqnozla xəstəxanalara yerləşdirilib. Günvurma nəticəsində sakinlərin xəsarət almasının səbəbi kimi bütün ölkə ərazisində davam edən kəskin istilər göstərilir. Ölkənin müxtəlif rayonlarında termometrlərin civə sütununun müsbət 40 dərəcədən yuxarı qalxması barədə demək olar ki, hər gün xəbərlər daxil olur. Avqustun 14-də ölkənin cənub-qərbində, Fukuoka və Hirosima prefekturalarında havanın temperaturu müsbət 37 dərəcə, Osaka və Naqoyedə isə 36 dərəcəyə bərabər olub. Yaponiya paytaxtı Tokioda isə müsbət 34 dərəcə isti qeydə alınıb.

TƏRS BAXIŞ

**Məlum olduğu kimi, KXCP “Milli Şura”da təmsil olunmasa da, bu partiyada uzun illər fəaliyyət göstərmiş Oqtay Gülalıyev, hələ də AXCP sədri Əli Kərimlinin egidası altında olan qurumda fəaliyyət göstərir, üstəlik, bu qurumun koordinasiya şurasına da üzvdür. Söz yox ki, Mirmahmud Mirəlioğlunun əzəli düşməni hesab edilən Əli Kərimlinin yanında onun partiyasının təmsilçisinin, yəni O.Gülalıyevin fəaliyyət göstərməsi sədrə müsbət təsir bağışlamır. Bu baxımdan, artıq onun KXCP sıralarından kənarlaşdırılması barədə müvafiq qərar da qəbul edilib. Üstəlik, onu da xatırladaq ki, Gülalıyev son bir ilə qədər Mirəlioğlunun müavini postunu tutub. Lakin ona edilən xəbərdarlıqlara rəğmən, O.Gülalıyev “Milli Şura” sıralarında qalacağını bəyan edib.**

### Mirmahmud Mirəlioğlu: “Oqtay Gülalıyev partiyanın nizamnaməsini pozub və destruktiv fəaliyyətlə məşğul olub”

Əlbəttə, Mirəlioğlu Gülalıyevin ona qarşı aparılan oyunda mövqe tutduğunu da yaxşı bildiyi üçün, eləcə də, xəyanətə rəvac verdiyi üçün onu partiya sıralarından çıxarmalıydı. Bəs deyil ki, M.Mirəlioğlu sözügedən olayla bağlı mətbuata açıqlamasında deyib: “Oqtay Gülalıyev partiyanın nizamnaməsini pozub və destruktiv fəaliyyətlə məşğul olub. Ona görə də, ali məclisdən xaric edilib”.

Maraqlısı da budur ki, O.Gülalıyev bütün baş verənlərə rəğmən, hələ də özünü KXCP-nin üzvü hesab edir. Halbuki AXCP sədri onu öz partiyasına transfer olunmağa çağırıb. Əlbəttə, belə bir çağırış da siyasi manipulyasiya hesab edilə bilər. Çünki O.Gülalıyev, əslində, ona KXCP üzvü kimi daha çox səmərə verər. Yəni KXCP-də parçalanma və qarşıdurmaların yaradılması üçün Gülalıyev Kərimli üçün ən məqbul vasitədir.

# KXCP-də gərginlik davam edir

*Partiyada çoxtirəlik yaranıb*

### Oqtay Gülalıyev Əli Kərimlinin təkidi ilə Mirmahmud Mirəlioğlunu seçkiləri “boykot” etməyə səsləmişdi

Belə ki, hələ bu ilin fevralında onu KXCP-nin ali məclis üzvlüyündən xaric etmişdilər. Hətta həmin qərardan dərhal sonra Gülalıyev özünün facebook səhifəsində yazmışdı ki, onun ali məclis üzvlüyündən xaric edilməsi birbaşa partiyanın sədri M.Mirəlioğlunun təkidi nəticəsində baş tutub. Həmin vaxt prezident seçkiləri ərəfəsi idi və O.Gülalıyev Ə.Kərimlinin təkidi ilə M.Mirəlioğlunu seçkiləri “boykot” etməyə səsləmişdi. Söz yox ki, burada əsas məqsəd AXCP-”Milli Şura” cütlüyünün digər müxalifət partiyaları qarşısında üstünlük qazanması idi. Daha dəqiq desək, azsaylı elektorata sübut edilməliydi ki, müxalifətin digər cinahı seçkilərə qatıldığı halda, “Milli Şura” buna getmir və ona görə də, yerdə qalan müxalifət partiyaları “xəyanətkardırlar”.

Digər tərəfdən, Ə.Kərimli yaxşı bilirdi ki, O.Gülalıyevdən M.Mirəlioğluna qarşı “silah” kimi istifadə edib, özünə xal toplaya biləcək. Çünki məlum olduğu kimi, KXCP sədri “boykot” taktikasını rədd etmişdi.

### İddia edirdilər ki, etirazçı fraksiyaçıların əsas gücvərəni, bilavasitə AXCP sədri Əli Kərimlidir

Bu arada onu da xatırlatmaq yerinə düşərdi ki, hələ bir neçə il öncə, KXCP-də fraksiyaçılar qrupu yaradılmışdı və onlar hər vəchlə Mirmahmud Mirəlioğlunun sədrlikdən çıxarılmasına çalışıblar. Bəlli mənbələr, onda da iddia edirdilər ki, etirazçı fraksiyaçıların əsas gücvərəni, bilavasitə AXCP sədri Əli Kərimlidir. Lakin həmin vaxt Mirəlioğlunun yaxın ətrafı fraksiyaçıları partiyadan uzaqlaşdırmağı bacarmışdılar.

Hazırkı dövrdə isə O.Gülalıyev faktoru ortaya atılıb və deyilənə görə, KXCP-də onun tərəfdarları da üzə çıxıblar. Payızda bu partiyada yeni çaxnaşmaları gözləmək mümkündür. Hər halda, ənənəvi düşərgədə ölüm-qalım savaşı davam edəcək.

**Rövşən NURƏDDİNOĞLU**

SİYASİ RAKURS

# Sosial şəbəkələrdəki “klaviatura qəhrəmanları”

*Yaxud gerçək azadlıqla saxta azadlığı səhv salanlar*



**Azərbaycanda yaradılmış söz və media azadlığı mühiti, nəinki, postsovet ölkələrində, eləcə də, aparıcı Qərb ölkələrində belə mövcud deyil. Əslində, bu kimi iddianın irəli sürülməsinə əsaslar da var. Daha doğrusu, əgər bu gün MDB məkanı da daxil olmaqla, Britaniyada, Fransada, İspaniyada, eləcə də, ABŞ-da müəyyən və bəlli hadisələr zamanı sosial şəbəkələrə məhdudiyyətlər qoyulursa (əslində, bu kimi faktlar dəfələrlə baş verib-R.R.), ölkəmizdə belə hal, ümumiyyətlə yaşanmayıb. Siyasi baxışından, mənsubiyyətindən və s. fərqliliyindən asılı olmayaraq, hər kəs facebook, tvitter, yotube və s. adlı şəbəkələrdə fikirlərini paylaşır, öz baxışını ortaya qoyur və heç kim bu addımına görə təqib edilmir. Həmçinin, sosial media amili də bu kimi vasitələrdə fəaliyyət göstərir və həmin fəaliyyət tam azad şəkildə həyata keçirilir.**

### Söz yox ki, belələrinin çirkin məqsədləri, hətta kimlikləri də bəllidir

Lakin son bir neçə ildir ki, xarici ölkələrdə “dissident”, yaxud “siyasi mühacir” kimi qondarma statusları mənimsəyərək, Azərbaycan dövlətinin və xalqının maraqlarına qarşı çıxan bəlli fərdlər bu vasitə ilə müəyyən xarici dairələrin sifarişlərini həyata keçirməyə cəhd göstərərək, necə deyərlər, öz “çörək pullarını” bundan çıxarmağa çalışırlar. Əlbəttə ki, onların buradakı “ələkçinin qıl verənləri” də var ki, müxtəlif ictimai-siyasi əhəmiyyətli hadisələr ərəfəsində, hətta qeyri-zamanlarda suyu bulandırmaqla məşğuldurlar. Söz yox ki, belələrinin çirkin məqsədləri, hətta kimlikləri də bəllidir. Bir müddət öncə, biz Orduxan Teymurxanın qardaşının Bakıda istirahət, əyləncə kompleksi işlətməsini, Tural Sadıqlının bir ailənin qızını, evlənmək adı ilə aldadaraq, Almaniyaya aparmasını, sonradan onu döyərək qovmasını, babalarının isə qatı cinayətkar olmasını sübut edən faktları ictimai rəyin diqqətinə çatdırmışdıq. Linkləri aşağıda bir daha yerləşdiririk:

http://sesqazeti.az/news/opposition/670693.html

https://news.milli.az/politics/637065.html

Qeyd edək ki, araşdırmalarımız nəticəsində “klaviatura qəhrəmanlıqları” edənlərin bütün iç üzləri tam çılpaqlığı ilə ortaya çıxarılaraq, ifşa olunmuşdular, eyni zamanda, ölkə mətbuatı bu araşdırmanı diqqətə alaraq, qəzetimizə istinadən tirajlamışdı.

### Bu kimi məsələlərdə, bilavasitə AXCP sədri Əli Kərimlinin rolunu qeyd etmək yerinə düşərdi

Beləliklə, bu amilin yenidən qabardılmasını vacib bilərək, digər “klaviatura qəhrəmanlarının” kimlikləri barədə araşdırma aparıb, onların da ifşa olunmasını məqsədəuyğun hesab etdik. Məsələ həm də ondadır ki, sosial şəbəkədə arzuolunmaz tendensiya da təşviqedici, yəni hansısa şəxsi nə zamansa mediaya verdiyi açıqlamaya, tutduğu mövqeyə görə başqalarına söydürməkdir. Bu kimi məsələlərdə, bilavasitə AXCP sədri Əli Kərimlinin rolunu qeyd etmək yerinə düşərdi. Onun AXCP-nin gənclər komitəsi, həmçinin, “Azadlıq” qəzetinin facebook səhifəsində, eləcə də, saxta səhifələrdə söyüş qrupları yaradaraq, onları, necə deyərlər, insanların üzərinə qısqırtması birinci hal deyil. Ümumiyyətlə, facebookda qısa araşdırma aparanda, bu tipli status paylaşan profillərlə daha yaxından tanış olduqda, görürük ki, belə addım atanların böyük əksəriyyəti özünü Azərbaycanda siyasi hakimiyyətə qarşı görən, hətta aşırı radikal görən şəxslərdir. Yəni aşırı radikal, dağıdıcı mövqeyi ilə seçilən siyasi partiyalarda və onların yedəyində olan müxtəlif təşkilatlarda təmsil olunanlar ölkənin ictimai-siyasi həyatında az-çox tanınan şəxsləri bu “metodla” hədəfə alır, onların fikirlərini lağ və ələsalma obyektinə çevirirlər. Maraqlı tərəf, həm də burasıdır ki, bir sıra hallarda bu qaragüruhun hədəf aldığı şəxslər demədikləri sözə, ifadə etmədikləri fikrə görə də söyüş və təhqir ünvanına çevrilirlər.

### Hər kəsin azadlığı bir başqasının azadlığının sərhədinə qədərdir...

Bu gün saxta profillərlə Azərbaycan hakimiyyətinə və dövlətinə qarşı olmazın qədər fəaliyyət göstərən “qəhrəmanlar”, əslində, gerçək azadlıqla saxta azadlığın səhv saldıqlarının fərqinə varmalıdırlar. Gerçək azadlıq onlara verilən və yaradılan şəraitdir, saxta azadlıq isə belələrinin özlərini xarici dairələrin qullarına çevirmələridir. Məşhur bir aforizmdə, qeyd edildiyi kimi, hər kəsin azadlığı bir başqasının azadlığının sərhədinə qədərdir. Yəni beləri özlərinə rəva görmədikləri həqarətləri başqalarına da etməməlidirlər. Edirlərsə, demək, cavablarını da alırlar. Bu isə, o deməkdir ki, beləri mənəviyyat dairələrini itiriblər və bunu həzm edirlər.

Əlbəttə, zaman çatacaq və beləri nə qədər səhv yolda olduqlarını anlayacaqlar. Ancaq bunu vaxtında da anlamaq mümkündür. Təbii ki, əgər onlar Əli Kərimli, Emin Milli, Orduxan Teymurxan, Tural Sadıqlı və Məhəmməd Mirzəli kimi vətənsiz şərəfsizlərin təsir dairələrindən çıxmağı bacarsalar. Əks-halda, günah özlərindədir...

**Rövşən RƏSULOV**

# “Nar” qəbul imtahanlarında ən yüksək nəticə göstərmiş abituriyentləri mükafatlandırıb

“Nar” korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində ötən il olduğu kimi bu il də ali məktəblərə qəbul imtahanları zamanı ən yüksək nəticə göstərərək 700 bal toplamış abituriyentləri dəyərli hədiyyələrlə mükafatlandırdı. 14 avqust 2018-ci il tarixdə ictimaiyyət və media nümayəndələrinin iştirakı ilə keçirilən tədbir modern.az saytı ilə birgə təşkil edildi. Mükafatlandırma mərasimində Azərbaycanın müxtəlif bölgələrini təmsil edən və ilin ən uğurlu abituriyenti adını qazanan 29 gəncə “Nar” operatoru adından ən müasir smartfonlar, eləcə də mobil internet və zənglər üçün balans təqdim edildi.

Tədbirdə iştirak edən qonaqlar abituriyentlərlə yaxından tanış olmaq və onları şəxsən təbrik etmək imkanı qazandılar. “Nar” operatorunun ictimaiyyətlə əlaqələr üzrə rəhbəri Əziz Axundov da, öz növbəsində, gəncləri təbrik edərək onlara gələcək karyeralarında müvəffəqiyyətlər arzuladı: “Gənclərimizin ildən-ilə göstərdikləri daha yüksək nəticələr bizi çox fərəhləndirir. Yüksək əzmkarlıq və çalışqanlıq kimi xüsusiyyətlər sayəsində əldə edilən bu nailiyyətə görə gənclərimizi təbrik etmək “Nar” olaraq bizim üçün də artıq xoş bir ənənəyə çevrilmişdir. Əminəm ki, bu, daha böyük uğurların başlanğıcıdır”, - deyə Əziz Axundov qeyd etdi.



Təhsil “Nar” operatorunun KSM strategiyasının ən vacib istiqamətlərindən biridir. Gənclərdə oxumaq həvəsi oyatmaq, layiqli təhsil almaları üçün onlarda motivasiya yaratmaq mobil operatorun ən ümdə məqsədlərindən biridir. Təhsil və maarifləmənin inkişafına xüsusi önəm verən “Nar” bu kimi təşəbbüslərlə tələbələrə dərslərində daha uğurlu olmaları üçün əlavə stimul verməyə çalışır.

“Azerfon” şirkəti 21 mart 2007-ci ildə “Nar Mobile” ticarət nişanı ilə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. 2 milyondan artıq20 istifadəçisi olan “Nar” hazırda ölkə ərazisinin 93%-ni əhatə edən və 7000-dən artıq baza stansiyasından ibarət olan geniş şəbəkəsi ilə abunəçilərinə yüksəkkeyfiyyətli xidmət göstərir.

# Uşaq hüquqlarının müdafiəsinin əsas istiqamətləri

***Uşaq hüquqlarının təmin edilməsində beynəlxalq hüquq normalarının qəbul edilməsi ilə yanaşı, onların realizəsi də zəruridir ki, bu da həmin istiqamətdə dövlətdaxili normativ-hüquqi aktların qəbul edilməsini əsaslandırır. L.F.Minqazov haqlı olaraq, qeyd edir ki, hüquq normalarının səmərəliliyi, məhz həmin normaların realizəsində təcəssüm olunur.***

Bütövlükdə, uşaq hüquqlarının müdafiəsi 2 mühüm istiqamətdə inkişaf etdirilməlidir:

- uşaq hüquqlarının müdafiəsinə yönəldilmiş və dünya dövlətləri tərəfindən tətbiq edilməli olan beynəlxalq sənədlərin qəbul edilməsi;
- beynəlxalq sənədlərin tələbləri nəzərə alınmaqla hər bir dövlətin siyasətinin konkret istiqamətlərinin inkişafı.

Nadir Adilov yazır: "Uşaq hüquqlarının müdafiəsindən danışarkən, bu istiqamətdə AR tərəfindənqəbuledilmiş dövlətdaxili normativ-hüquqiaktlar datəsnifləşdirilməlidir. Təsnifləndirmənin isə, əsasən, 4 mühüm istiqamətdə aparılması bu problemin əhəmiyyətini anlamağa imkan verir:

- Qanunvericilik sisteminin əsas bazasıolan konstitusiya qüvvəli aktlar;
- Özündə insan və uşaq hüquqları sahəsində bəzi normaları birləşdirən dövlətdaxili normativ-hüquqi aktlar;
- İnsan hüquqları ilə əlaqədar qəbul edilmiş dövlətdaxili normativ-hüquqi aktlar;
- Bilavasitə, uşaq hüquqları ilə əlaqədar qəbul edilmiş dövlətdaxili normativ-hüquqi aktlar.

Bütövlükdə, uşaq hüquqlarının müdafiəsi istiqamətində dövlətdaxili fəaliyyətin həyata keçirilməsi mühüm istiqamətlərdən biridir. Bu isə aşağıdakılarda ifadə olunur: uşaq hüquqlarına dair qanunvericilik bazasının yaradılması; uşaq hüquqları sahəsində beynəlxalq aktlara tərəfdar çıxmaq; uşaq hüquqları sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıq; milli orqanların yaradılması.

Uşaq hüquqlarının qorunması sahəsində milli orqanların fəaliyyətindən danışarkən, AR Prezidentinin 2006-cı il 6 fevral tarixli Fərmanı ilə yaradılmış AR-in Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi xüsusi qeyd edilməlidir. Digər bir mühüm orqanın yerli icra hakimiyyəti orqanları yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə komissiyaların fəaliyyəti də xüsusi vurğulanmalıdır".

Bütövlükdə, hüquq ədəbiyyatında dövlətdaxili qanunvericiliyin vəziyyəti bir sıra göstəricilərlə müəyyən edilir: konstitusiya prinsiplərinin əksolunma dərəcəsi; əsas qanunların mövcudluğu; sahəvi qanunvericiliyin inkişaf qanunauyğunluğu; beynəlxalq hüququn prınsip və normalarına uyğunluq və s. Başqa sözlə, İ.Rulanın qeyd etdiyi kimi, hal-hazırda qanunvericilik vasitəsi, ilk növbədə, daha çox hər hansı təbii və ya səmərəli qaydanı müəyyən etməyi deyil, cəmiyyətin nail olmaq istədiyi və onun ideologiyasında, proqram və layihələrində müəyyən edilən qaydanı müəyyən etmək üçün istifadə edilir.

AR dövlətdaxili qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində bir sıra beynəlxalq təşkilatlarla mühüm beynəlxalq müqavilələr imzalanmışdır. Bu cəhətdən AR Hökuməti və BMT Uşaq Fondu (YUNİSEF) arasında əməkdaşlığa dair 25 may 2002-ci il tarixli əsas Saziş (Saziş AR-in 13 may 2003-cü il tarixli Qanunu ilə təsdiq edilmişdir) xüsusi qeyd edilməlidir. Bu Sazişdə YUNİSEF-in AR-dəki proqramlarda əməkdaşlığının ümumi müddətləri və şərtiəri müəyyənləşdirilmişdir. Hökumətlə YUNİSEF arasında razılaşdırılmış əməkdaşlıq proqramları hökumət, YUNİSEF və zərurət olan halda, digər iştirakçı təşkilatlar arasında bağlanacaq əsas fəaliyyət planında əks etdiriləcəkdir. Əsas fəaliyyət planı əməkdaşlıq proqramlarının xüsusiyyətlərini dəqiqləşdirəcək, həyata keçiriləcək fəaliyyətin məqsədlərini, Hökumətin, YUNİSEF-in və iştirakçı təşkilatların vəzifələrini, habelə, əməkdaşlıq proqramlarının yerinə yetirilməsi üçün lazım olan maliyyə ehtiyatlarını müəyyənləşdirəcəkdir.

N.Adilovun qanunvericilik sisteminin əsası kimi, ilk növbədə, 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmiş, sonradan 24 avqust 2002-ci il tarixdə və 18 mart 2009-cu il tarixli referendumla konstitusiyaya təklif olunmuş əlavə və dəyişikliklərin ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilməsi xüsusi qeyd olunmalıdır. Bütövlükdə, AR Konstitusiyasının qəbul edilməsi cəmiyyətin bütün sahələrinə toxunan normativ-hüquqi bazanın formalaşmasına təkan verdi. AR hələ 18 oktyabr 1991-ci il tarixli "Dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının 19-cu maddəsində AR-in Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin insan hüquqları sahəsində ən nüfuzlu beynəlxalq sənəd olduğunu tanıdığını bəyan etdi.

Konstitusiyanın III fəsli 24-71-ci maddələr bütövlükdə, insan və vətəndaş hüquq və azadlıqlarına həsr olunmuşdur. 24-cü maddənin 1-ci bəndində göstərilir ki, hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquq və azadlıqları vardır. Konstitusiyada irqindən, dinindən, cinsindən, mənşəyindən, əqidəsindən, siyasi və sosial mənsubiyyətindən asılı olmayaraq, hər bir insanın hüquq və azadlıqlarının müdafiəsi qanunvericilik, icra və məhkəmə orqanlarının qarşısında ümdə vəzifə kimi qoyulmuşdur.

Bu zaman, ilk növbədə, AR Konstitusiyasının 17-ci maddəsinin müddəaları qeyd edilməlidir. 18 mart 2009-cu il tarixli referendumda konstitusiyaya təklif olunan əlavə və dəyişikliklərlə isə konstitusiyamızın 17-ci maddəsinə yeni normalar gətirilmişdir; cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir; uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur; bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir; valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar dövlətin himayəsindədirlər; uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır, 15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər; uşaq hüquqla keçirilməsinə dövlət nəzarət edir.

Bu əlavə və dəyişikliklər uşaq hüquqlarının dövlət səviyyəsində müdafiəsini daha da möhkəmləndirir və cəmiyyətə yeni ictimai-siyasi-hüquqi dəyərlər gətirir. Konstitusiyanın 34-cü maddəsinin 3-cü bəndinin göstərişinə görə analıq, atalıq və uşaqlıq qanunla mühafizə edilir. Dövlət çoxuşaqlı ailələrə yardım göstərir. Həmin maddənin 4-cü bəndində isə qeyd edilir ki, uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideyinlərin həm hüququ, həm də borcudur.

Bütövlükdə, AR Konstitusiyası insan hüquq və azadlıqlarının təminatlı bir sistem kimi qurulmasını təmin etmişdir. Bu münasibətləri təhlil edən V.N.Denisov qeyd edir ki, məhz dövlətdlaxili hüquq və onun əsas aparıcı sahəsi olan konstitusiya hüququ, bilavasitə şəxsiyyətin azadlığı və məsuliyyətini tənzim edir, vətəndaşların subyektiv hüquq və vəzifələrini müəyyən edir. Buna görə də insan hüquqları sahəsində beynəlxalq hüquq normalarının konstitusion implementasiyası, nəinki onların dövlətdaxili realizəsinin əsas və həlledici vasitəsidir, həm də dövlətlərin bu sahədə beynəlxalq öhdəliklərinin həyata keçirilməsinin mühüm ümumi göstəricisidir. Ədəbiyyatda, haqlı olaraq göstərilir ki, milli və beynəlxalq hüququn əlaqəsinin tənzimlənməsinin həcmi, ilk növbədə, hüququn sistemləri arasında qarşılıqlı fəaliyyətinin əsas tənzimləyicisi kimi dövlətlərin konstitusiyası ilə reqlamentləşdirilir.

N.Adilov yazır: "AR-də insan hüquqları üzrə öhdəliklərin təmin olunması məqsədilə qəbul edilən başlıca qanunlardan biri "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" 28 dekabr 2001-ci il tarixli AR Konstitusiya Qanunudur. Həmin Qanunun 1-ci maddəsində İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) fəaliyyətinin əsasları müəyyən edilmişdir:

- Ombudsman vəzifəsi AR Konstitusiyasında və AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş vəzifəli şəxslər tərəfindən pozulan insan hüquqlarının və azadlıqlarının bərpa edilməsi məqsədilə təsis olunmuşdur;
- Ombudsmanın AR-də fəaliyyəti insan hüquqlarının müdafıəsini, pozulmuş insan hüquqlarının və azadlıqlarının bərpasını təmin edən digər dövlət orqanlarının səlahiyyətlərini məhdudlaşdırmır, o cümlədən, əvəz etmir;
- AR Prezidentinin, AR Milli Məclisinin deputatlarının və AR hakimlərinin fəaliyyətinin yoxlanılması Ombudsmanın səlahiyyətlərinə aid deyil;
- Ombudsman əfv, vətəndaşlıq, siyasi sığınacaq verilməsi məsələlərinin həlli ilə bağlı AR Prezidentinə təkliflər verə bilər;
- Ombudsman AR Milli Məclisinə insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə qanunların qəbul edilməsinə və ya baxılmasına dair, o cümlədən, amnistiya elan edilməsi ilə bağlı təkliflər verə bilər;
- Ombudsmanın məhkəmədə süründürməçilik, sənədlərin itirilməsi və ya vaxtında verilməməsi, habelə, məhkəmə qərarlarının icrasının gecikdirilməsi ilə əlaqədar insan hüquqlarının pozulmasına dair şikayətlərə baxmaq hüququ vardır;
- Ombudsmanın fəaliyyəti aşkarlıq, şəffaflıq, qanunçuluq, ədalət və qərəzsizlik prinsipləri əsasında qurulur.

Ombudsman AR vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, eləcə də, hüquqi şəxslərin hüquqlarının pozulmasına dair şikayətlərinə baxır. Qanunun 14-cü maddəsi ilə, cari il bitdikdən 2 aydan gec olmayaraq, ölkədə insan hüquqlarının qorunması haqqında AR Prezidentinə illik məruzə təqdim etməsi və həmin məruzə ilə AR Milli Məclisi qarşısında çıxış etməsi barədə öhdəliyi müəyyən olunmuşdur.

Beləliklə, AR-də insan hüquqları üzrə Müvəkkil-Ombudsman, müstəqil bir struktur olmaqla insan hüquq və azadlıqlarının müdafiəsi üçün dövlət tərəfindən yaradılmış və fəaliyyətinə dövlət tərəfindən təminat verən əlavə bir mexanizmdir.

Uşaq hüquqlarının müdafiəsinin dövlətdaxili aspektlərindən danışarkən, bir sıra dövlətlərdə yaradılan uşaq hüquqları üzrə müvəkillərin (komissarların) fəaliyyəti xüsusi qeyd edilməlidir."

T.Pitissa yazır: "İlk belə vəzifə 1981-ci ildə Norveçdə, daha sonra, bir sıra Avropa ölkələrində, Latın Amerikası, Kanada, Avstraliya, Yeni Zelandiya və İsraildə yaradılmışdır. Rusiyada da uşaq ombudsmanları yaradılmışdır. Belə ki, 1998-ci ildən ölkənin 5 regionunda (Kaluqa, Novqorod, Volqoqrad, Yekaterinburq və Sankt-Peterburq) belə təsisatlar yaradılmışdır. Daha sonra, bu institut regional əsasda inkişaf etməyə başlamış və 2002-ci il məlumatlarına görə, Rusiya Federasiyasının 13 subyektində belə təsisat yaradılmışdır".

1981-ci ildə Norveçdə Uşaq Hüquqları üzrə Ombudsman, 1993-cü ildə İsveçdə Uşaq Hüquqları üzrə Ombudsman, 1995-ci ildə Danimarkada Uşaq Hüquqları üzrə Milli Şura, 1981-ci ildə Finlandiyada Uşaq hüquqları üzrə Ombudsman və s. yaradılmışdır.

E.B.Melinkovanın fikrincə, Uşaq Hüquqları üzrə ombudsmanlar, bütövlükdə, əlaqələndirmə funksiyasını yerinə yetirirlər. Belə ki, müxtəlif istiqamətlərdə fəaliyyət göstərən təsisatlarla, nəinki əməkdaşlıq edirlər, eyni zamanda, onların səylərini əlaqələndirirlər. Lakin əksər ölkələrdə uşaq hüquqlarının müdafiəsi sahəsində ayrıca, müstəqil ombudsmanlar fəaliyyət göstərmirlər, onlar vahid İnsan Hüquqları üzrə Ombudsmanın əsas fəaliyyət istiqamətlərindən biri kimi müəyyən edilirlər. Lakin ədəbiyyatda, uşaq probleminin ciddiliyini və dünyanın 30 ölkəsində mövcudluğunu nəzərə alaraq, onun ayrıca bir istiqamətdə fəaliyyət göstərilməsi zəruriliyi də qeyd edilir.

Nəhayət, insan hüquqlarının müdafiəsi istiqamətində AR-ın qəbul etdiyi digər normativ-hüquqi akt "Azərbaycan Respublikasında insan və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" 24 dekabr 2002-ci il tarixli AR Konstitusiya Qanunu olmuşdur. İnsan hüquqlarının təmin edilməsi Azərbaycan dövlətinin məqsədi kimi AR Konstitusiyasında nəzərdə tutulduğundan, bu Qanun Konstitusiya Qanunu kimi qəbul edilmişdir. Qanunun qəbul edilməsində əsas məqsəd AR-də insan hüquq və azadlıqlarının həyata keçirilməsini İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyasına uyğunlaşdırmaq olmuşdur. Qanuna görə AR Konstitusiyasının heç bir müddəası dövlət orqanları, təşkilatlar və ya ayrı-ayrı şəxslər tərəfindən insan və vətəndaş hüquqlarının və azadlıqlarının ləğvinə və ya AR Konstitusiyasında nəzərdə tutulduğundan daha artıq dərəcədə məhdudlaşdırılmasına yönəlmiş fəaliyyət və ya hərəkətlər üçün hüquqi əsas yaradan müddəa kimi şərh edilə və ya başa düşülə bilməz və heç kəs öz hüquqlarından və azadlıqlarından sui-istifadə edə bilməz. İkinci bir aspekt özündə insan və uşaq hüquqlarını birləşdirən dövlətdaxili normativ-hüquqi aktlardır.

İlk növbədə, 28 dekabr 1999-cu il tarixli AR Ailə Məcəlləsinin X fəsli (Uşaqların mənşəyinin müəyyən olunması), XI fəsil (Ailədə uşaqların hüquqları), XII fəsil (Valideynlərin hüquq və vəzifələri) bilavasitə uşaq hüquqlarının qorunması sahəsində mühüm müddəaları nəzərdə tutur. Bu zaman XI fəsil xüsusi qeyd edilməlidir. Belə ki, burada 49-cu (Uşağın ailədə yaşamaq və tərbiyə olunmaq hüququ), 50-ci (Uşağın öz valideynləri və başqa qohumları ilə ünsiyyətdə olmaq hüququ), 51-ci (Uşağın müdafiə hüququ), 52-ci (Uşağın öz fikrini bildirmək hüququ), 53-cü (Uşağın ad, ata adı və soyadı daşımaq hüququ), 54-cü (Uşağın adının və soyadının dəyişdirilməsi), 55-ci (Uşağın əmlak hüquqları) maddələri xüsusi qeyd edilməlidir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 15 avqust


## Bu ilin ən keyfiyyətsiz smartfonları açıqlanıb

Ekspertlər istifadəçiləri əldə etdikdən sonra məyus edə biləcək cari ilin 5 ən keyfiyyətsiz smartfonunu açıqlayıb. AZƏRTAC "rambler.ru" resursuna istinadla xəbər verir ki, antireytinq siyahısında lider "Nohor 9 Lite" modelidir. Ucuz olmasına baxmayaraq, qurğu zəif texniki xüsusiyyətlərə, əlavə yaddaş kartının alınmasına zərurət yaradan kiçik yaddaş tutumuna, eləcə də aztutumlu (3 min milliamper/saat) akkumulyatora malikdir.

İkinci yerdə "Vivo V9" smartfonu qərarlaşıb. Cəlbedici xarici görünüşə malik model köhnə "microUSB" portu ilə təchiz edilib, eləcə də "NFC" texnologiyasını dəstəkləmir. Bundan başqa, smartfonun fotokamerası günəş işığında obyektləri parıltılı göstərir.

Siyahıda üçüncü pillədə öz sinfinin ən pisi seçilən "Samsung Galaxy A8" modeli yer alıb. Smartfon 32 giqabayatlıq quraşdırılmış yaddaş və tez boşalan batareya ilə təchiz edilib. Çatışmazlıqlar arasında aşağı keyfiyyətli kamera və solğun ekran qeyd olunur.

## Yuxululuq yaxınlaşan ölümün ilk əlamətidir

Yuxu və oyaqqalma rejiminin pozulması yaxınlaşan ölümün əsas əlamətlərindən biridir. Oklend Universitetinin alimləri bildiriblər ki, onlar molekulyar markerlərin tədqiqi ilə məşğul olarkən drozofil milçəyinin öləcəyini əvvəlcədən müəyyənləşdirməyin yolunu tapıblar.

AZƏRTAC Rusiyanın ixtisaslaşmış tibb saytlarına istinadla xəbər verir ki, düzgün qurulmuş bioritm, o cümlədən yuxu və oyaqqalma rejimi ömrü uzada bilər, lakin onun pozulması hətta ölümlə nəticələnəcək ciddi fəsadlar törədə bilər. Deməli, yuxululuq yaxınlaşan ölümün ilk əlamətidir.

Alimlər 10, 30 və 50 günlük milçəklərin periferiya toxumasında və beynində "period" və "timeless" genlərini tədqiq edərkən bu nəticəyə gəliblər ki, onlar artmış fəallığı müşahidə edən zaman həşəratların ölümü yaxınlaşıbmış. Ekspertlər ölümə gətirib çıxara biləcək müvafiq titrəyişi insan orqanizmi ilə müqayisə ediblər. Doğrudur, dəyişiklik milçəklərə daha tez təsir göstərir, odur ki, nəticə göz qabağındadır.

## Qoz yağının 7 möhtəşəm faydası

1. İltihabı sağaldır. Omega 3 və omega 6 kimi doymamış yağlar ilə qoz revmatizm və digər iltihablı xəstəliklərə tutulma riskini əhəmiyyətli dərəcədə azaldır.
2. Ekzema kimi dəri xəstəliklərindən qorunmanı təmin edir. Gündə bir neçə qaşıq qoz yağı qəbul etmək ekzema kimi dəri xəstəliklərinin müalicəsinə kömək edir.
3. Milli.az xəbər verir ki, qoz qocalmanın təsirlərini azaldır. Antioksidant tərkibli qoz və qoz yağı hüceyrə məhvinə səbəb olan sərbəst radikalları nəzarət altında saxlayır və qocalmanın təsirlərini gecikdirir.
4. Hormon səviyyələrinin normada qalmasına yardımçı olur: Selen, fosfor, maqnezium, sink, dəmir baxımından zəngin olan qoz, həmçinin hormonları tarazlayıcı xüsusiyyəti olan kalsiumu da əhatə edir.
5. Ürək xəstəliklərinə tutulma riskini azaldır. Daşıdığı omega-3 yağ turşusu olan alfa-linol turşusu ilə qan damarlarının sağlamlığına yardımçı olur və ürək xəstəliyi riskini azaldır.
6. Qan dövranını artırır. Yüksək miqdarda omega 3 doymamış yağı daşıdığına görə, damar sərtliyininə mane olur və qan dövranını artırır. Damar elastikliyi yüksək təzyiq və ürək xəstəliklərinin əsas səbəblərindən olduğu üçün gündə 2-3 ədəd qoz və ya bir miqdar qoz yağı qəbul etmək tövsiyə edilir.
7. Dəri sağlamlığına kömək olur: B1, B2, və B6 vitaminləri ilə dəri səthinin daha hamar olmasına və keyfiyyətinin yüksəlməsinə yardımçı olur.


## Elan

Kaspi Liseyi Ümumtəhsil Məktəbinin rəhbərliyi bildirir ki, Kaspi Liseyi Ümumtəhsil Məktəbinin təşkilati-hüquqi forması Kaspi Liseyi Ümumtəhsil Məktəbi Məhdud Məsuliyyətli Cəmiyyətinə dəyişilmişdir.


## Millimizin oyunlarının vaxtı açıqlanıb



17 yaşadək futbolçulardan ibarət Azərbaycan yığması Qazaxıstanda keçiriləcək "Prezident kuboku" turnirində iştirak edəcək. Qol.az-ın AFFA-nın rəsmi saytına istinadən yaydığı xəbərə görə, 6 komandanın mübarizə aparacağı yarışın püşkünün nəticəsinə əsasən, komandamız Qazaxıstan və Qırğızıstanın U-17 yığmaları ilə birgə B qrupunda yer alıb.

A qrupunda isə Tacikistan və Krasnodar Akademiyasının U-17 komandası ilə yanaşı, Qazaxıstanın 16 yaşadək futbolçulardan ibarət yığması mübarizə aparacaq. Avqustun 24-də start götürəcək turnirin ilk oyun günündə, təqvimə əsasən, Azərbaycan yığması meydana çıxmayacaq. Komandamız növbəti gün Qırğızıstan yığması ilə üz-üzə gələcək.

## Bakayoko rəsmən "Milan"da



"Çelsi"nin futbolçusu Temue Bakayokonun "Milan"a keçidi rəsmiləşib. Klubun saytında yer alan xəbərə görə, 23 yaşlı yarımmüdafiəçi 2018/2019 mövsümündə icarə əsasında İtaliya təmsilçisində çıxış edəcək.

Yerli mətbuat "Milan"ın 5 milyon avro icarə haqqı ödədiyini yazıb. Klubun mövsümün sonu 35 milyon avro ödəyərək oyunçunu birdəfəlik ala biləcəyi iddia olunub. Qeyd edək k, Bakayoko 2017-ci ildə "Monako"dan 45 milyon avroya "Çelsi"yə transfer olunub. O, burada 43 matçda 3 qol vurub, 3 qolun ötürməsini verib.

## "Yuventus" "Real"ın təklifini rədd etdi




"Yuventus" futbolçusu Miralem Pyaniçi "Real"a satmaqdan imtina edib. Qol.az-ın xarici KİV-lərə istinadən yaydığı xəbərə görə, Turin təmsilçisi 28 yaşlı yarımmüdafiəçi üçün göndərilən 60 milyon avroluq təklifi rədd edib. Klubun M.Pyaniçlə müqavilənin müddətini uzatmağı düşündüyü bildirilib. "Yuventus"un 80 milyon avro qarşılığında oyunçunu sata biləcəyi iddia olunub. Qeyd edək ki, M.Pyaniç ötən mövsüm A seriyasında 31 matçda 5 qol vurub, 8 qolun ötürməsini verib.

## Mario Mandzukiç Xorvatiya millisindən getdi



"Yuventus"un futbolçusu Mario Mandzukiç Xorvatiya millisindəki karyerasını başa vurub. Bu barədə 32 yaşlı hücumçu Xorvatiya Futbol Federasiyasının saytına açıqlamasında bildirib. Qeyd edək ki, 2007-ci ildən Xorvatiyanın əsas komandasında oynayırdı. O, 89 matçda 33 qol vurub və yığmanın tarixinin ən yaxşı ikinci bombardiridir. M.Madzukiç milli ilə DÇ-2018-in gümüş mükafatçısı olub.

## Eto'o Qətər klubunda



Türkiyən "Konyaspor"undan ayrılan Samuel Eto'o özünə klub tapıb. 37 yaşlı futbolçu bundan sonra Qətər çempionatında çıxış edəcək. O, bu ölkənin "Qətər" komandası ilə anlaşıb. Karyerası ərzində "Real", "Barselona", "İnter", "Çelsi" kimi Avropanın nəhəng klublarında çıxış etmiş Eto'o 2015-2018-ci illər aralığında "Antalyaspor"da, ötən mövsümün ikinci dövrəsində isə "Konyaspor"un formasını geyinib.

## "Liverpul"un müdafiəçisi 3 həftə oynaya bilməyəcək



Milli komandadan zədəli qayıdan "Liverpul"un müdafiəçisi Deyan Lovrenin durumuna aydınlıq gəlib. SİA-nın məlumatına görə, çanaq sümüyündə zədə aşkarlanan xorvatiyalı futbolçunun təxminən 3 həftə yaşıl meydanlardan kənarda qalacağı gözlənilir. Həkimlər 29 yaşlı oyunçunun zədəsini dünya çempionatındakı ağır oyunlarla əlaqələndiriblər. Qeyd edək ki, Lovren ötən mövsüm də eyni zədədən əziyyət çəkib.


**Baş redaktor:**
Bəhruz Quliyev

**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500